# Xalq qəzeti

Xalqın qəzeti!

№ 138 (30542) 5 iyul 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

Ekoloji tarazlığın təbii, sosial və idarəetmə prinsiplərinin vəhdəti



Səhifə ⇨ 7

# ŞƏT ölkələrinin Qərbə və Şimala yolları Azərbaycandan keçir




Səhifə ⇨ 2

## Azərbaycan–Çin: münasibətlər strateji tərəfdaşlığa yüksəldi

*İki dövlət arasında əməkdaşlıq çoxşaxəli və konstruktivdir*

**Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşündə səslənmiş fikirlər, eləcə də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" Bakı–Pekin münasibətlərinin yüksək səviyyəsinin növbəti təsdiqi ilə yanaşı, eyni zamanda, ölkəmizin çoxşaxəli siyasət kursunun təntənəsidir. Respublikamız yalnız Qərblə deyil, Asiya regionu ilə əlaqələrin möhkəmləndirilməsinə də müstəsna önəm verir ki, burada Çinin rolu son dərəcə böyükdür.**

Çin Azərbaycanın ilk idxal mənbəyi və beş əsas ticarət tərəfdaşımızdan biridir. 2023-cü ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 3,1 milyard dollar təşkil edib ki, bu, ötən illərlə müqayisədə xeyli yüksəkdir. Ancaq təəccüblənməyə dəyməz, çünki vəziyyəti doğuran amillər var. Diqqət yetirək, bu gün Azərbaycanda 300-dən çox Çin şirkəti qeydiyyata alınıb və onlar sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, nəqliyyat və xidmət sahələrində aktiv fəaliyyət göstərirlər. Digər məqam kimi Çindən Azərbaycana 930,8 milyon dollar, Azərbaycandan Çinə isə 263,3 milyon dollar həcmində investisiya qoyuluşunu vurğulamalıyıq.

Eyni zamanda, onu da bildirək ki, Azərbaycan Pekinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyənlərdən biridir və Çinlə nəqliyyat-logistikaya dair qlobal təşəbbüslər müstəvisində sıx əməkdaşlıq qurub. Ölkəmiz mövcud istiqamətdə ciddi praktik təşəbbülər də reallaşdırıb, "Bir kəmər, bir yol" layihəsinin mühüm hissəsi olan Orta dəhliz infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırıb.

Hesab edirik ki, Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi barədə xüsusi söz açılmalıdır. Orta dəhliz Çindən Avropaya və geriyə yüklərin çatdırılması üçün ən səmərəli və təhlükəsiz marşrutdur. 2023-cü ilin 9 ayı ərzində bu marşrut üzərindən yükdaşımaların həcmi 88 faiz artaraq, 2 milyon tona çatıb. 2022-ci ildə Azərbaycan üzərindən tranzit axını təxminən 75 faiz artıb ki, təqribi hesablamalar bu həcmin Zəngəzur dəhlizinin açılmasından sonra ildə 5-8 milyon ton artacağını gözləməyə əsas verir. Onu da qeyd etməliyik ki, Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi ilə Çindən Türkiyəyə yük daşımalarının müddəti 1 aydan 12 günə qədər azalıb. Çindən göndərilən bu yüklərin Türkiyə vasitəsilə Qərbi Avropa ölkələrinə çatdırılması cəmi 18 günə başa gəlir ki, bu da dövriyyənin sürətlənməsini, müvafiq olaraq gəlirlərin artmasını şərtləndirir.



Bəli, Azərbaycan–Çin əlaqələri çoxşaxəli struktura malikdir. Burada enerji keçidi, bərpa olunan enerji sahəsində əməkdaşlıqdan tutmuş istehsal sahələrinədək bir sıra məqamlar var. Məsələn, Azərbaycanda elektrik mühərrikli avtobusların istehsalı sahəsində Çinin "BYD Company Limited" (BYD) şirkəti ilə işbirliyinə start verilib. Avtobusların yerli istehsalına isə 2025-ci ildə başlanılması planlaşdırılır. Bakı ilə Sıçuan əyaləti, Gəncə ilə Çindaonun, Sumqayıt ilə Sian və Myenyan şəhərlərinin, Çunçin şəhərinin Cyancin rayonunun, Naxçıvan Muxtar Respublikası ilə Çunçin şəhərinin, Bakı şəhərinin Xəzər rayonu ilə Quancou şəhər bələdiyyəsinin Nanşa rayonunun əməkdaşlığına dair sənədlərin imzalanması isə nikbin mənzərəyə xüsusi ovqat qatır. Habelə, elm və təhsil sahəsində əməkdaşlığın inkişafını, Pekin Dillər Universitetində Azərbaycan dilinin tədrisi kafedrasının mövcudluğunu, ölkəmizin ali məktəblərində Konfutsi institutlarının uğurlu fəaliyyətini də qeyd etməliyik.

Bütün bunlarla yanaşı, bir məqamı da xüsusi vurğulamağa ehtiyac var. Heydər Əliyev Fondu Azərbaycanla Çin arasında mədəni və humanitar mübadilənin əsas hərəkətverici qüvvəsidir. Fond "Çinin Xarici Ölkələrlə Dostluq üzrə Xalq Cəmiyyəti" ilə birlikdə müxtəlif layihələr həyata keçirir ki, bu fəaliyyətin də uğuru göz önündədir. Bundan başqa, 2023-cü ilin aprelində Pekində Heydər Əliyev Fondunun vitse-prezidenti xanım Leyla Əliyevanın "Yalnız bir dəfə yaşayırsan" poeziya kitabının Çin dilinə tərcümə olunmuş variantının təqdimatı keçirilib. Nəzərə alaq ki, bu nəşr Çin Xarici Dillər Nəşriyyatı Administrasiyası tərəfindən ölkələrin mədəni və humanitar sahələrdəki əməkdaşlığının gözəl nümunəsi kimi qiymətləndirilib.

Çin bu gün qlobal faktordur, dünyanın super gücüdür. Onunla 1992-ci ildən qurulmuş münasibətlərimizin yüksək məcraya çatdırılması həm tərəqqi və inkişaf təminatıdır, həm də qloballaşan və dəyişən dünyanın sərt reallıqlarına qarşı son dərəcə ciddi sığortadır. Nəzərə alaq ki, rəsmi Pekinlə ikitətərli münasibətlərdəki dinamika bəzi Qərb dairələrinin, xüsusən Fransanın ökəmizi qlobal proseslərdən təcrid siyasətinə verilən ən layiqli cavabdır. Belə nəticəyə gəlirik ki, Azərbaycan və Çin liderlərinin görüşü və imzalanmış bəyannamə cavabın tutarlılıq təbiətinin, bir növ, rəsmiləşdirilməsidir.

**(ardı 4-cü səhifədə)**

## Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Cozef Baydenə

**Hörmətli cənab Prezident!**

4 İyul – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan Amerika Birləşmiş Ştatları ilə münasibətlərinə xüsusi əhəmiyyət verir. Ölkələrimiz mürəkkəb regional çağırışların həlli istiqamətində, terrorizmə qarşı mübarizə və beynəlxalq təhlükəsizlik məsələlərində hər zaman yaxından əməkdaşlıq ediblər. Enerji sahəsindəki uzunmüddətli və səmərəli birgə fəaliyyətimiz xüsusi əhəmiyyət kəsb edir. Birləşmiş Ştatların Azərbaycanın enerji strategiyasının gerçəkləşməsinə, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan Cənub Qaz Dəhlizinin reallaşmasına verdiyi qətiyyətli dəstəyini yüksək qiymətləndiririk.

Xalqlarımızın mənafeləri naminə qarşılıqlı maraq doğuran bütün sahələrdə, xüsusilə də iqlim dəyişmələri və yaşıl enerjiyə keçid məsələlərində ABŞ ilə birgə səylər göstərməyə hazır olduğumuzu vurğulamaq istəyirəm. ABŞ-nin noyabr ayında Bakıda keçiriləcək COP29-a, tədbir çərçivəsində ümumi iqlim məqsədlərinin irəli aparılması yolunda dəstəyi böyük əhəmiyyət kəsb edir. Biz eyni zamanda humanitar, mədəniyyət və turizm sahələrində, sivilizasiyalararası dialoqun təşviqində də Azərbaycan–ABŞ münasibətlərinin genişlənməsində maraqlıyıq.

Azərbaycan yeni geosiyasi reallıqlara və ədalətə əsaslanan, hər hansı ayırıcı xətlər olmadan inteqrasiya olunmuş və inklüziv Cənubi Qafqaz regional əməkdaşlıq modelinin qurulmasının tərəfdarıdır. Azərbaycan Ermənistan ilə sülh müqaviləsinin və onun əsasını təşkil edən 5 prinsipin təşəbbüskarı olaraq sülh gündəliyinin irəli aparılması üçün daim siyasi iradə nümayiş etdirir. Ermənistan ilə münasibətlərin normallaşdırılmasına, bölgədə davamlı sülhün bərqərar edilməsi, sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-nin hər zaman dəstək vermək əzmini təqdir edirik.

Bu gün qarşılıqlı faydalı iqtisadi-ticari əlaqələrimizin şaxələndirilməsi, xüsusilə də yüksək texnologiyalar, rəqəmsal və yaşıl keçid, kənd təsərrüfatı, investisiyalar, aviasiya və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün böyük perspektivlər vardır.

İnanıram ki, dost və tərəfdaş olan Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələri əhatə edən sıx əməkdaşlığın ölkələrimizin maraqları və xalqlarımızın rifahı naminə bundan sonra da uğurla davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, Amerika Birləşmiş Ştatlarının dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 iyul 2024-cü il**

## Şanxay Əməkdaşlıq Təşkilatı Avropaya doğru genişlənir



Səhifə ⇨ 6

## Avropanın qaz təchizatında ölkəmizin payı artır



Səhifə ⇨ 7

## Londondan Sidneyə 25 illik veloyürüş



Səhifə ⇨ 10

# Astanada “ŞƏT plyus” formatında görüş keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış edib





**İyulun 4-də Qazaxıstanın paytaxtı Astana şəhərində “ŞƏT plyus” formatında görüş keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak etmək üçün “Müstəqillik” Sarayına gəldi. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev dövlətimizin başçısını qarşıladı. Görüş iştirakçıları birgə foto çəkdirdilər. Sonra tədbir iştirakçılarının şərəfinə rəsmi ziyafət verildi. Daha sonra “ŞƏT plyus” formatında görüş keçirildi. Şanxay Əməkdaşlıq Təşkilatının sədri, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev “ŞƏT plyus” formatında görüşdə iştirak edən dövlət və hökumət başçılarını salamladı və çıxış etdi.**



**Qazaxıstan Prezidenti Azərbaycanın ŞƏT-ə üzv ölkələrlə yüksək səviyyəli əlaqələrinə toxundu, bu ilin noyabrında Bakıda keçiriləcək COP29-un əhəmiyyətini vurğulayaraq dedi:**

– Biz bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 konfransında iqlim gündəliyi ilə bağlı həmrəyliyimizi nümayiş etdirə biləcəyik. Fürsətdən istifadə edərək, möhtərəm Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə bu qlobal tədbirin keçirilməsində uğurlar arzulayıram.

* * *

Sonra görüşdə BMT-nin Baş katibi Antonio Quterreş, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko, İran İslam Respublikasının Prezidenti vəzifəsini icra edən Məhəmməd Moxber, Çin Xalq Respublikasının Sədri Si Cinpin, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Hindistan Respublikasının xarici işlər naziri Subrahmanyam Cayşankar, Monqolustanın Prezidenti Uxnaaqiyn Xurelsux çıxış etdilər.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dedi:

– İndi isə sözü fəxri qonaq qismində görüşə dəvət olunmuş dövlət başçılarına vermək istərdim.

Söz Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevə verilir.

* * *

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli dövlət və hökumət başçıları.

Əvvəlcə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısına dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkürümü bildirmək istərdim.

Bu, mənim son iki ildə Qazaxıstana dördüncü səfərimdir. Həmin müddətdə Qazaxıstan Prezidenti Azərbaycana üç dəfə səfər edib və bu, ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olmasından xəbər verir.

Azərbaycan ikinci dəfədir ki, ŞƏT-in Zirvə toplantısına dəvət olunur. Biz bunu Azərbaycan ilə üzv dövlətlər arasında inkişaf edən tərəfdaşlığın göstəricisi kimi qiymətləndiririk.

Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyət Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın vacib sahəsini təşkil edir. Coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib.

Orta Dəhlizin tərkib hissəsi olan Bakı–Tbilisi–Qars dəmir yolunun illik ötürücülük qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artıb.

Biz tərəfdaşlarımızla Orta Dəhlizin rəqəmsallaşması üzərində işləyirik.

Bundan başqa, Azərbaycan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona qədər artırmaq niyyətindədir.

Azərbaycan, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafında mühüm rol oynayır. Şimal-Cənub dəhlizinin Azərbaycan seqmentinin dəmir yolu və avtomobil infrastrukturu hazırdır və uğurla fəaliyyət göstərir. Hazırda biz dəmir yolu daşımalarının həcminin ildə 15 milyon tona qədər artırılması üzərində işləyirik, sonradan zərurət yaranarsa, bu rəqəm 30 milyon tona çatdırılacaq.

Hörmətli həmkarlar, 2023-cü ilin sentyabrında Azərbaycan beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Bununla da beynəlxalq hüquq və tarixi ədalət bərpa olundu. Azərbaycan Ermənistanın otuzillik işğalına son qoydu və BMT Təhlükəsizlik Şurasının otuz il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını hərbi-siyasi vasitələrlə təmin etdi.



Azərbaycan multilateralizmi fəal şəkildə dəstəkləyir. Biz 2019–2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrlik etdik, onun qlobal arenada nüfuzunu və gücünü möhkəmləndirdik, Hərəkatın institusional inkişafına töhfə verdik, üzv dövlətlərin dəstəyi ilə Hərəkatın Parlament Şəbəkəsini, Gənclər Təşkilatını təsis etdik, habelə Qadın Platformasının əsasını qoyduq.

Təxminən, 200 ölkənin yekdil dəstəyi ilə Azərbaycan bu il COP29-a evsahibliyi edəcək. Biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağıq.

Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır. Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib.

Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik. Mən artıq ŞƏT-ə üzv dövlətlərin liderlərinə rəsmi dəvət məktubları ünvanlamışam və həmkarlarımı noyabrda Bakıda görəcəyimə ümid edirəm.

Sağ olun.

* * *

**Prezident Kasım-Jomart Tokayev dedi:**

– Hörmətli İlham Heydər oğlu Əliyev, məzmunlu çıxışınıza görə Sizə təşəkkür edirəm. Biz Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin möhkəmləndirilməsi səylərinə böyük əhəmiyyət veririk.

* * *

**Sonra Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Birləşmiş Ərəb Əmirliklərinin Ras əl-Xeymə Əmirliyinin hakimi Saud bin Saqr Al Qasimi çıxış etdilər.**

* * *

Qeyd edək ki, “ŞƏT plyus” formatında keçirilən görüşə 16 ölkənin dövlət və hökumət başçıları qatılıb. Dövlətimizin başçısı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ŞƏT-in sədri statusunda dəvəti ilə görüşdə iştirak edib. Xatırladaq ki, bu, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında ikinci iştirakıdır. Bundan əvvəl Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı təşkilatın 2022-ci il sentyabrın 16-da Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak edib. Azərbaycanın belə mötəbər təşkilatın Sammitinə ikinci dəfə dəvət olunması ölkəmizin, xüsusilə Prezident İlham Əliyevin dünya miqyasında nüfuzunun və dövlətimizin başçısına göstərilən yüksək ehtiramın ifadəsidir.

Həm ərazisinə, həm də əhalisinə görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin üzv olduğu Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda ŞƏT-in 9 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran), 3 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan, Belarus) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka) var. Xatırladaq ki, 2022-ci ilin sentyabrında Səmərqənddə keçirilən Zirvə görüşündə Belarusun bu təşkilat çərçivəsində statusunun üzv dövlət səviyyəsinə yüksəldilməsi prosesi başlanıb. Astana Sammitində Belarusun Şanxay Əməkdaşlıq Təşkilatına qoşulması barədə qərar qəbul edilib.

Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir.

## Prezident İlham Əliyevin Qazaxıstana səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri iyulun 4-də başa çatıb.**

***AZƏRTAC***

# Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında görüş



**Azərbaycana səfəri çərçivəsində Vatikan Dövlətinin Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskal Yakabonenin başçılıq etdiyi arxeoloq və ekspertlərdən ibarət nümayəndə heyətinin Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovla görüşü olub.**

Görüşdə Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında əlaqələrin inkişafından məmnunluq ifadə edilib, müxtəlif səviyyələrdə reallaşan qarşılıqlı səfərlərin, o cümlədən 2002-ci ildə Papa II İohann Pavelin, 2016-cı ildə Papa Fransiskin ölkəmizə, Prezident İlham Əliyevin, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın isə Vatikana səfərlərinin həm ikitərəfli əlaqələr, həm də sivilizasiyalararası dialoq baxımından mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb, imzalanan sənədlərin münasibətlərimizin genişlənməsinə töhfə verdiyi qeyd edilib.

Müzakirələr zamanı Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin fəaliyyətindən, formalaşmış səmərəli əməkdaşlıqdan, birgə layihələrin icrasından məmnunluq ifadə edilib, hazırda da müştərək layihələr üzərində işlərin uğurla davam etdirildiyi bildirilib. Vurğulanıb ki, Vatikanda bir sıra bəşəri əhəmiyyət daşıyan tarixi abidələrin Fond tərəfindən bərpasının həyata keçirilməsi, mədəni irsin qorunması sahəsində işlərin görülməsi ikitərəfli münasibətlərin dərinləşməsinə töhfədir.

Paskal Yakabone görülən bütün işlərə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlığını ifadə edib.

Dini etiqad və vicdan azadlığının tam təmin olunduğu, çoxlu sayda dini icmanın fəaliyyət göstərdiyi, hər kəsin dini ayinləri sərbəst şəkildə yerinə yetirməsi üçün zəruri şəraitin təmin edildiyi Azərbaycanda digər dini icmalara olduğu kimi, katolik icmaya da göstərilən diqqət, ölkəmizdə kilsə və məbədlərin, o cümlədən katolik kilsələrin bərpası istiqamətində görülən işlər yüksək dəyərləndirilib.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Fondun gələcəkdə də Müqəddəs Taxt-Tacla əməkdaşlıq çərçivəsində yeni layihələrə açıq olduğunu diqqətə çatdırıb.

Görüşdə tarixi və mədəni əhəmiyyət daşıyan abidələrin bərpası istiqamətində təcrübə mübadiləsinin əhəmiyyətinə də nəzər salınıb.

Vatikan Dövlətinin Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskal Yakabone hər 25 ildən bir Müqəddəs Taxt-Tacda keçirilən və növbəti mərasimin 2025-ci ilə təsadüf etdiyi Müqəddəs Yubiley İli ilə bağlı tədbirə Heydər Əliyev Fondunun da dəvətli olduğunu diqqətə çatdırıb.

### BMT Cenevrə Ofisinin rəhbəri Azərbaycana səfər edib

**BMT-nin Cenevrədəki Ofisinin Baş direktoru Tatyana Valovaya ölkəmizə səfəri çərçivəsində Prezidentin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov ilə görüşüb.**

Görüşdə Heydər Əliyev Fondu ilə BMT arasında gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb, COP29 çərçivəsində ili qurumun birgə fəaliyyətinə dair layihələr müzakirə edilib.

Azərbaycanın bu il evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un dünyada ekoloji problemlərin həlli baxımından uğurlu nəticələr verəcəyinə, tədbirin bəşəriyyət üçün yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirmək, planetimizin gələcəyi üçün müsbət nəticələr əldə etmək istiqamətində növbəti addım olacağına əminlik ifadə olunub.



Qonaq daha sonra Heydər Əliyev Mərkəzində nümayiş etdirilən sərgilərlə tanış olub.

**XQ**

# XİN-in Astanada üçtərəfli görüşlə bağlı bəyanatı

**Xarici İşlər Nazirliyi Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Astanada keçirilən görüşünə dair bəyanat yayıb.**

Bu barədə XİN-dən məlumat verilib.

Bəyanatda deyilir: “3 iyul 2024-cü il tarixində Azərbaycan Prezidenti Zati-aliləri İlham Əliyev, Türkiyə Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Zati-aliləri Şahbaz Şərif Şanxay Əməkdaşlıq Təşkilatının Dövlət Başçıları Şurasının 24-cü iclası çərçivəsində Astanada görüşüblər. Üçtərəfli Zirvə görüşündə Azərbaycan, Türkiyə və Pakistan arasında münasibətlər, həmçinin Qəzza, Kipr, Kəşmir, İslamofobiya kimi regional və qlobal məsələlər müzakirə olunub. Daha öncə Azərbaycan–Türkiyə–Pakistan üçtərəfli əməkdaşlıq prosesi çərçivəsində parlament spikerləri və xarici işlər nazirləri səviyyəsində keçirilmiş görüşlərin, həmçinin dövlət başçıları səviyyəsində təşkili nəzərdə tutulur. Habelə, üç ölkə arasında əməkdaşlıq imkanlarını inkişaf etdirmək üçün ortaq niyyət təsdiqlənib. Azərbaycan–Türkiyə–Pakistan arasında üçtərəfli əməkdaşlığın möhkəmləndirilməsinin üç ölkənin xalqlarının inkişafı ilə yanaşı, regional və qlobal sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəyinə dair razılıq ifadə olunub. Üç ölkə suverenlik və ərazi bütövlüyü prinsiplərinə uyğun olaraq münaqişələrin həllində müvafiq ölkələr arasında dialoqun prioritetləşdirilməsini dəstəklədiklərini bildiriblər. Transmilli təhdidlərə, xüsusilə terrorizmə qarşı mübarizədə üç ölkə arasında əməkdaşlığın və bu məsələnin birgə həllinin vacibliyi də bir daha təsdiqlənib. Üçtərəfli əməkdaşlıq prosesi çərçivəsində növbəti görüşlər hər üç ölkədə, yəni Azərbaycan, Türkiyə və Pakistanda keçiriləcək”.

# AŞ-nin ölkəmizlə bağlı qərəzi

**İyulun 3-də Avropa Şurasının İşgəncənin və Qeyri-insani, yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Komitəsinin (İQAK) Azərbaycanla bağlı ictimai bəyanatın dərc olunması barədə qərar qəbul etməsi bizi dərindən təəssüfləndirdi. İQAK, həmçinin “İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında” Avropa Konversiyasının tələbinə zidd olaraq Azərbaycanın müvafiq razılığı alınmadan 2022-ci ildə edilmiş xüsusi səfərinin yekunları üzrə hazırlanmış hesabatı tam şəkildə dərc etmək barədə əvvəllər presedenti olmayan qərar qəbul edib. Bu yanaşma ədalətsiz və əsassızdır, habelə hüquqi baxımdan sual yaradır.**

Bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Avropa Şurasının İşgəncənin və Qeyri-insani, yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Komitəsinin (İQAK) ictimai bəyanatına dair şərhində yer alıb.

Mətbuat katibi bildirib ki, 2002-ci ildən etibarən İQAK bir neçə dəfə ölkəmizə dövri və xüsusi səfər həyata keçirib, Konvensiyanın Azərbaycan tərəfindən reallaşdırılmasına dair hesabatlar dərc edib. Azərbaycan hesabatlarda qeyd olunan hər bir müddəa üzrə hökumətin mövqeyini təqdim edib. Bununla yanaşı, ictimai bəyanatda da qeyd edildiyi kimi, müvafiq çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti üzrə addımlar atılıb və Komitənin tövsiyələri hər zaman nəzərə alınıb.

Əməkdaşlıq müddətində Komitəyə bu günə qədər etdiyi səfərlər zamanı lazımi dəstək göstərilib. Yerli təhqiqatların aparılmasına dəstək göstərilməsi ilə yanaşı, nümayəndə heyəti üzvlərinin mümkün ən yüksək səviyyədə qəbul olunmasını təmin etmək üçün addımlar atılıb və əməkdaşlığın əsaslarının möhkəmləndirilməsi üçün bütün səylər göstərilib.

“Bu qərarın 2024-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası tərəfindən Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini ratifikasiya etməmək barədə qərəzli qərarından sonra yaranmış Azərbaycan–Avropa Şurası münasibətlərində mövcud vəziyyətin fonunda qəbul olunması xüsusilə təəssüf doğurur. Biz bir sıra dövlət qurumları ilə konstruktiv əməkdaşlığın əvəzinə, məsuliyyəti onların üzərinə yıxan sözügedən ictimai bəyanatdakı tənqidləri rədd edirik.

**XQ**

# FHN-də COP29 qərargahı



**İyulun 4-də Fövqəladə Hallar Nazirliyində bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29-a hazırlıq çərçivəsində aidiyyəti təhlükəsizlik məsələlərinin müzakirəsi məqsədilə Fövqəladə Hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə müşavirə keçirilib.**

Müşavirədə nazir müavinləri, FHN-in müvafiq struktur bölmə və qurumlarının rəhbərləri iştirak ediblər.

Kəmaləddin Heydərov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un ölkəmizdə keçirilməsi barədə qəbul edilmiş qərarın Azərbaycanın növbəti tarixi uğuru olduğunu vurğulayıb. Nazir qeyd edib ki, dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri hesab olunan COP29-un Azərbaycanda keçirilməsi Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin daim artan beynəlxalq nüfuz və qüdrətindən xəbər verir.

Sonra nazir COP29-la bağlı ölkəmizə gələcək çoxsaylı qonaqların, tədbirin keçiriləcəyi, eləcə də qonaqların yerləşəcəyi məkanların və ətraf ərazilərin aidiyyəti təhlükəsizlik məsələlərinin yüksək səviyyədə həll edilməsinin zəruriliyini bildirib. Bu məqsədlə FHN-də yaradılmış və nazirliyin peşəkar əməkdaşlarından ibarət qərargahın fəaliyyətini qeyd edib, qarşıda duran vəzifələrdən danışıb.

Daha sonra COP29-a hazırlıqla bağlı aidiyyəti təhlükəsizlik məsələlərinin həllinə dair Qərargah üzvlərinin görülmüş işlərlə əlaqədar məruzələri dinlənilib, geniş müzakirə aparılıb.

# Soydaşlarımızın Moskvada xeyriyyə aksiyası



**Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin əməkdaşları Moskvanın “Bizim Ev” ailə tərbiyəsinə dəstək mərkəzində olublar. Orada valideyn himayəsindən məhrum uşaqlar üçün rəsm müsabiqəsi təşkil edilib.**

Moskvada yerləşən “Bizim ev” ailə tərbiyəsinə dəstək mərkəzi qapılarını valideyn himayəsindən məhrum olan sağlam uşaqlarla yanaşı, fiziki və zehni inkişafdan geri qalan körpələrin də üzünə açıb. Mərkəzin rəhbərliyi Heydər Əliyev Fondunun, Fondun vitse-prezidenti Leyla Əliyevanın daimi qayğısından, uşaq evinə olan diqqətindən danışıb. Bildirilib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti və Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva dəfələrlə burada uşaqlara baş çəkib, onlar üçün bayram tədbirləri təşkil edib.

“Bizim Ev” ailə tərbiyəsinə dəstək mərkəzinin direktoru Vadim Menşov Heydər Əliyev Fonduna təşəkkürünü bildirərək deyib: “Heydər Əliyev Fondunun nümayəndələrinin “Bizim Ev”ə hər gəlişi bayramdır. Biz Leyla xanım Əliyevanın sayəsində Heydər Əliyev Fondu ilə dostlaşmışıq. Leyla xanım hər zaman bizə dəstək olur. Onun böyük mənəvi dəstəyi bizim üçün çox dəyərlidir”.

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin bölmə rəhbəri Tamilla Əhmədova Fondun uşaqlara daim xüsusi qayğı göstərdiyini vurğulayaraq qeyd edib: “Hamımız yaxşı bilirik ki, uşaqlar bizim gələcəyimizdir. Məhz uşaqlar dünyanın gələcəkdə necə olacağını, necə inkişaf edəcəyini müəyyənləşdirəcəklər. Ona görə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərliyi ilə fondun Rusiya nümayəndəliyinin uşaqlara göstərdiyi diqqət və qayğı işimizin çox vacib tərkib hissəsidir”.

# Qarsda “Qərbi Azərbaycana Qayıdış” Forumu

**Türkiyənin Qars şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə, Türkiyə Azərbaycan Assosiasiyaları Federasiyası və Qars Azərbaycan Qafqaz Mədəniyyətləri Assosiasiyası tərəfindən təşkil olunan “Qərbi Azərbaycana Qayıdış” Qars Forumu keçirilib.**



TADEF üzvü Qars Assosiasiyasının sədri Nəbi Arıq, TADEF-in sədri vəzifəsini icra edən Pərviz Məmmədzadə, DİDK sədrinin birinci müavini Valeh Hacıyev, Azərbaycanın Qars şəhərindəki baş konsulu Nuru Quliyev, Qars bələdiyyəsi başçısı professor Ötiken Senger çıxışlarında forumun əhəmiyyətindən danışıblar. Çıxışçılar bu toplantıların Qərbi azərbaycanlıların hüquqlarının təmin olunması və onların vətənlərinə dönmələri prosesinin gündəmdə saxlanılmasına töhfə verəcəyinə inandıqlarını bildiriblər.

Forumun ikinci hissəsində TADEF sədrinin müavini Səttar Kaya, Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini Hikmət Babaoğlu, Qafqaz Universitetinin professoru Hacəli Nəcəfoğlu, AMEA Tarix İnstitutunun əməkdaşı dosent Nazim Mustafa və Qafqaz Universitetinin professoru Mustafa Kop çıxış edərək, Qərbi Azərbaycan anlayışı və həqiqətləri, eləcə də Azərbaycanın haqlı tələbləri barədə məlumat veriblər.

**XQ**

# Hərbi Prokurorluğun Lənkəran görüşü

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ili və ölkəmizdə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və DİN-in Daxili Qoşunlarının yüksəkrütbəli hərbi qulluqçuları Lənkəran şəhərində şəhər rəhbərliyinin iştirakı ilə tədbir keçiriblər.**



Hərbi prokurorun böyük köməkçisi – mətbuat xidmətinin rəhbəri Firad Əliyev, ədliyyə polkovniki Fərəc Sayılov, Lənkəran hərbi prokuroru Elşən Əli-Məmmədov və başqaları çıxış edərək Ulu öndərin həyat və yaradıcılığından, xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən danışıblar. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qazanılan nailiyyətlərdən, görülən misilsiz işlərə Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən söz açıblar.

Sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən danışılıb.

Sonda birgə ağaclar əkilib.

**XQ**

# Bakı–Pekin: iqtisadi əməkdaşlıqda yeni mərhələ

**Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində iyulun 3-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Sənəddə 1992-ci il aprelin 2-dən etibarən dost ölkələrin ikitərəfli əməkdaşlığının siyasi, sosial-iqtisadi sahələrində səmərəli nəticələr əldə olunduğu, beynəlxalq və regional vəziyyətin tektonik və mürəkkəb inkişafı fonunda önəmli uğurlar qazanıldığı və beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyətin gücləndirildiyi bildirilib.**



Birgə Bəyannamədə iki dost ölkənin bir sıra uyğun sektorlarında, eləcə də ticarət-iqtisadi sahələrində əlaqələrin davamlı və dinamik inkişafı qiymətləndirilir və ticarət, sərmayə və mühəndislik layihələrində qarşılıqlı fəaliyyəti daha da gücləndirmək üçün Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası mexanizminin səmərəli rolu yüksək dəyərləndirilir. Bununla yanaşı, Birgə Bəyannamədə Azərbaycan-Çin ticarət-iqtisadi əməkdaşlığının yüksək səviyyədə inkişafına nail olmaq məqsədilə nəqliyyat və kommunikasiyaların, "yaşıl enerji", emal və istehsal, infrastruktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı və s. sahələrdə layihələrin həyata keçirilməsinin bundan sonra da diqqət mərkəzində saxlanılması zəruri sayılır.

Qeyd edək ki, hər iki dost ölkənin iqtisadi əməkdaşlığın yeni inkişaf mərhələsinə yüksəlməsi üçün güclü potensiala malikdir. Tərəflərin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirmələri, gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlərin gerçəkləşdirilməsi bunun bariz ifadəsidir.

Respublikamız qarşı tərəflə əməkdaşlığı daha da genişləndirmək məqsədilə Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə daim ciddi əməl edib, daxili bazarın qorunması üçün haqsız rəqabətə qarşı mübarizəni gücləndirib və rəqabətin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsini önə çəkib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Xatırladaq ki, son illərdə Azərbaycanın qeyri-neft ixracı sahəsi coğrafi şaxələnmə ilə yanaşı, məhsul çeşidlərinin çoxalması ilə də diqqət çəkib. Beynəlxalq sərgi və ticarət yarmarkalarında ölkə sahibkarlarının iştirakına və "Made in Azerbaijan" brendinin xaricdə tanıdılmasına dəstək tədbirlərİ isə ixracın artımına müsbət təsir göstərib.

Azərbaycanın Çinlə əməkdaşlığında bir məqamı da xatırlatmaq istərdik. Belə ki, bu ölkənin innovasiyayönümlü investisiya imkanları respublikamız üçün mühüm önəm daşıyır. Başqa sözlə, bu, Azərbaycan iqtisadiyyatının diversifikasiya, innovasiya və transformasiyaya sadiqliyini, eynin zamanda, Şərqlə Qərbin kəsişməsində strateji mövqeyə malik ölkəmizin çinli sərmayədarları cəlb edə biləcək geniş imkanlara malik olduğunu təsdiqləyir.

Beləliklə, 2 ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi ticari-iqtisadi əlaqələrin inkişafını şərtləndirir. Təbii ki, belə bir şəraitin davamlı şəkildə formalaşması Azərbaycan–Çin arasında sərmayələrin təşviqi və qorunması, habelə ikiqat vergitutmanın qarşısının alınması üzrə imzalanan bir sıra sazişlərin, həmçinin texniki-iqtisadi əməkdaşlığa dair sənədlərin uğurla gerçəkləşdirilməsi ilə sıx bağlıdır .

Yeri gəlmişkən, iki ölkə arasında münasibətlərin yeni mərhələyə daxil olmasında xüsusi yer tutan iqtisadi əlaqələrinin genişləndirilməsi, bu sahədəki problemlərin həlli məqsədilə yaradılan Hökumətlərarası İqtisadi Komissiya hər zaman səmərəli fəaliyyət göstərib. Adıçəkilən komissiyanın ilk iclası 2009-cu ilin mayında keçirilib. Bundan əlavə, 2012-ci ilin iyununda Pekin şəhərində Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi ilə Çinin Kommersiya Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Azərbaycan 2016-cı ildə Asiya İnfrastruktur İnvestisiya Bankına üzv olub.

Ölkəmizin "Bir kəmər, bir yol" layihəsinə verdiyi dəyər 2017-ci ilin oktyabrında Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı ilə təsdiqlənib. Çin hökuməti bu polad magistralın istifadəyə verilməsini, marşrutun tikintisində respublikamızın rolunu, eləcə də "Bir kəmər, bir yol" layihəsinə verdiyi dəstəyi daim yüksək qiymətləndirib.

Onu da qeyd edək ki, son illərdə iki ölkə arasında ticarət dövriyyəsində müsbət dinamika müşahidə edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Çin Azərbaycanın 4-cü iri ticarət tərəfdaş olub. Əgər 2018-ci ildə Azərbaycanla Çinin xarici ticarət dövriyyəsi 1,3 milyard ABŞ dolları idisə, 2023-cü ildə 3,1 milyard ABŞ dollarını ötüb. Bu da müvafiq surətdə 2018-ci illə müqayisədə 1,8 milyard ABŞ dolları və ya 2,4 dəfə, 2022-ci ilin müvafiq göstəricisindən isə 1 milyard ABŞ dollar və ya 44 faiz çoxdur.

Ölkələrimiz arasında iqtisadi əlaqələrin dinamik inkişafından bəhs edərkən bir məqamı da xatırlatmaq istərdik. Belə ki, Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanla birgə əməkdaşlıq, hər 2 ölkənin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının səmərəli fəaliyyəti, Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB) ilə gerçəkləşdirilən layihələr, respublikamızın Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə fəal şəkildə qoşulması, eləcə də Şərq–Qərb, Orta Dəhliz layihələri çərçivəsində işgüzar münasibətlər dövlətlərimiz arasında yüksək iqtisadi göstəricilərin əldə olunmasını şərtləndirib.

Azərbaycan dost ölkə ilə nəqliyyat–logistikaya dair qlobal təşəbbüslər müstəvisində də sıx əməkdaşlıq qurub. Hər iki dövlət tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırılıb. Prezident İlham Əliyev çıxışlarının birində bu məsələyə toxunaraq deyib: "Nəqliyyat məsələsi daha böyük önəmə malikdir. Bu gün Transxəzər Nəqliyyat Dəhlizinə heç vaxt olmadığı qədər ehtiyac var. Biz Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığını görürük...".

Onu da xatırladaq ki, dövlətimizin başçısının təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" kimi müəyyənləşdirilib. Bununla yanaşı, dövlətimizin başçısının tapşırığına əsasən, işğaldan azad olunan ərazilərdə "Yaşıl enerji" zonasının yaradılması nəzərdə tutulub. Bu baxımdan alternativ və bərpaolunan enerji sahəsində də iki ölkə arasında böyük əməkdaşlıq potensialı mövcuddur və Azərbaycan tərəfindən bu sahəyə də çinli investorlar dəvət edilib.

Yuxarıda Dövlət Statistika Komitəsinin məlumatına əsaslanaraq qeyd etdik ki, ötən il Çin Azərbaycanın 4-cü iri ticarət tərəfdaş olub. Bu, iki ölkə rəhbərliyinin sözügedən sektorun inkişafına verdiyi önəm kimi daim diqqət çəkib. "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"də də bu barədə ətraflı bəhs edilib və dost ölkələrin ticarətin həcmini daha da artırmağa, əmtəələrin strukturunu optimallaşdırmağa və malların bazarlara çıxışını asanlaşdırmağa hazır olduqları bildirilib.

Beləliklə, adıçəkilən Birgə Bəyannamə vurğulandığı kimi, Çin Azərbaycanın Çin Beynəlxalq İdxal Ekspo, Çin idxal və ixrac malları sərgisi, Çin beynəlxalq xidmət ticarət sərgisi və digər böyük sərgilərdə fəal iştirakını alqışlayır. Azərbaycan Çinin aparıcı şirkətlərinin ADEX beynəlxalq hərbi sərgisində və ölkəmizin ərazisində keçirilən digər iri sərgi və forumlarda iştirakını dəstəkləyir. Çin Azərbaycanın tematik təqdimatlar keçirməsini və dost ölkə ərazisində açılan ticarət mərkəzləri və milli pavilyonlar, eləcə də Çin elektron ticarət şəbəkələri ilə əlaqə qurmasını yüksək dəyərləndirir.

Birgə Bəyannamə deyilir ki, tərəflər iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin davamlı və dinamik inkişafını yüksək qiymətləndirir və ticarət, sərmayə və mühəndislik layihələri sahəsində qarşılıqlı fəaliyyəti daha da gücləndirmək üçün Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası mexanizminin rolunu artırmağa davam etməyə, o cümlədən Azərbaycan-Çin ticarət-iqtisadi əməkdaşlığının yüksək səviyyədə inkişafına nail olmaq məqsədilə nəqliyyat və kommunikasiyalar, "yaşıl enerji", emal və istehsal, infrastruktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı və s. sahələrdə layihələrin həyata keçirilməsinin təşviqinə diqqət yetirməyə hazırdırlar.

Azərbaycan və Çin güclü iqtisadi tamamlayıcılıq, sənayeləşmə və investisiya sahəsində əməkdaşlığı artırmaq üçün böyük potensiala malikdirlər. Tərəflər Azərbaycan və Çin arasında sənayeləşmə və investisiya üzrə əməkdaşlıq mexanizmindən tam istifadə edəcək, baxış, planlaşdırma və siyasət sahəsində əlaqələri artıracaq, Azərbaycan və Çin şirkətlərinin fəaliyyətini dəstəkləyəcək, enerji, o cümlədən neft və qaz hasilatı və emalı, "yaşıl enerji" və nəqliyyat infrastrukturu, informasiya və telekommunikasiya, rəqəmsal iqtisadiyyat, əlvan metallar, tikinti materialları və s. kimi prioritet sahələrdə əməkdaşlığı fəal şəkildə təşviq edəcəklər.

Birgə Bəyannamədə iki ölkənin beynəlxalq multimodal daşımaların inkişafına dair sazişin imzalanması prosesini sürətləndirməyə hazır olması ilə bağlı öhdəliyi də öz ifadəsini tapıb.

Bundan başqa sənəddə tərəflər iki ölkənin inkişaf strategiyalarının birləşdirilməsini gücləndirməyə, "Bir kəmər, bir yol" çərçivəsində bütün sahələrdə praktiki əməkdaşlığı dərinləşdirməyə hazır olduqlarını bildirirlər. Eyni zamanda, Azərbaycan və Çin öz ərazilərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin və fasiləsiz fəaliyyətinin reallaşdırılması məsələlərinin həllində bir-birinin səylərini dəstəkləyəcəklərinə, milli qanunvericilik və ikitərəfli sazişlər çərçivəsində tranzit daşımalar üçün əlverişli şərait yaradacaqlarına vəd verirlər.

Dost ölkə ticarət-investisiya prosedurlarının sadələşdirilməsində də maraqlıdır. Başqa sözlə, Azərbaycan və Çin ticarət və investisiya prosedurlarının liberallaşdırılması və sadələşdirilməsi üçün institusional mexanizmin yaradılması imkanlarını fəal şəkildə araşdırmağa hazırdır.

Tərəflər, eyni zamanda, ÜTT-nin himayəsi altında çoxtərəfli ticarət sisteminə güclü dəstəyi təsdiqləyirlər. Çin tərəfi Azərbaycanın beynəlxalq çoxtərəfli ticarət sisteminin inkişafı və əməkdaşlığında fəal iştirakını, eləcə də Azərbaycanın ÜTT-yə daxil olma prosesi çərçivəsində həyata keçirdiyi tədbirləri dəstəkləyir.

Bu məqamda onu da xatırladaq ki, Çinin innovasiyayönümlü investisiya imkanları respublikamız üçün mühüm önəm daşıyır. Başqa sözlə, bu, Azərbaycan iqtisadiyyatının diversifikasiya, innovasiya və transformasiyaya sadiqliyini, eynin zamanda, Şərqlə Qərbin kəsişməsində strateji mövqeyə malik ölkəmizin çinli sərmayədarları cəlb edə biləcək geniş imkanlara malik olduğunu təsdiq edir. Beləliklə, iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi ticari-iqtisadi əlaqələrin inkişafını şərtləndirir. Təbii ki, bu şəraitin davamlı şəkildə formalaşması Azərbaycan–Çin arasında sərmayələrin təşviqi və qorunması, habelə ikiqat vergitutmanın qarşısının alınması üzrə imzalanan bir sıra sazişlərin, həmçinin texniki-iqtisadi əməkdaşlığa dair sənədlərin uğurla gerçəkləşdirilməsi ilə sıx bağlıdır.

Məhz elə bunun nəticəsidir ki, Çinin 1995-ci ildən indiyədək Azərbaycana yatırdığı birbaşa investisiyanın həcmi 920 milyon ABŞ dollarına çatıb, Azərbaycanın Çinə sərmayə qoyuluşu isə bundan təqribən 2 dəfə çoxdur. Azərbaycanda Çin investisiyalı 275 şirkət qeydiyyatdan keçib. Bundan başqa, Azərbaycanın işğaldan azad edilən ərazilərində başlanan infrastruktur layihələrində iştirak üçün Çin şirkətləri müraciət edib.

**Vaqif BAYRAMOV**
**XQ**

# Azərbaycan–Çin: münasibətlər strateji tərəfdaşlığa yüksəldi

**(əvvəli 1-ci səhifədə)**



Əlbəttə, Bakı–Pekin tərəfdaşlığındakı yüksək səviyyənin əldə edilməsində Azərbaycan və Çin liderlərinin şəxsi münasibətlərinin də böyük rolu var. Prezident İlham Əliyev ilə Si Cinpin arasında qarşılıqlı inam və etimada əsaslanmış yüksək səviyyəli dostluq isə indiyədək özünü bir çox məqamlarda göstərib. Cənab Cinpin ölkəmizin liderini bu ilin fevralında keçirilmiş Prezident seçkilərində qələbə münasibətilə ilk təbrik edən dövlət başçılarından olub.

Son illərin təmaslarına diqqət yetirsək, onu da deyə bilərik ki, dövlətimizin başçısı 2019-cu ilin aprelində ÇXR Sədrinin dəvəti ilə İkinci "Bir kəmər, bir yol" forumunda iştirak edib. Liderlər ŞƏT-in 2022-ci ilin sentyabrında Səmərqənddə gerçəkləşmiş sammiti çərçivəsində də bir araya gəliblər. Deməli, əməkdaşlığın inkişaf dinamikasının labüdlüyü nöqteyi-nəzərdən yanaşsaq, Astana Sammitindəki görüşdə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, əlaqələrin yeni inkişaf perspektivlərini doğurması məntiqi qanunauyğunluqdur.

Bəli, Azərbaycan və Çin rəhbərlərinin görüşündə imzalanmış birgə bəyannamə ölkələrin qarşılıqlı münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldir. Bu, son dərəcə vacib və tarixi məqamdır. Sənəd barədə söz açmazdan əvvəl isə liderlərin səsləndirdikləri fikirlərə nəzər salaq:

Prezident İlham Əliyev: "Yenidən görüşməyimizə çox şadam. Siz qeyd etdiyiniz kimi, ölkələrimiz yaxın tərəfdaşlardır və bu gün qəbul ediləcək Bəyannamə Çin Xalq Respublikasını və Azərbaycanı rəsmi olaraq strateji tərəfdaşlara çevirir. Hesab edirəm ki, bu, böyük nailiyyətdir, həmçinin yüksək məsuliyyətdir. Biz gələcəkdə də fəal qarşılıqlı fəaliyyət göstərmək, ikitərəfli əlaqələri bütün istiqamətlər üzrə möhkəmləndirmək niyyətindəyik".

ÇXR Sədri Si Cimpin: "Ölkələrimiz yaxşı dostlardır, bərabərlik və qarşılıqlı faydaya əsaslanan yaxşı tərəfdaşlardır. Çin–Azərbaycan münasibətləri həmişə sağlam və sabit şəkildə inkişaf edib. İki ölkə arasında əməkdaşlıq səmərəli nəticələr verib və daha zəngin strateji məzmuna çatıb. Bu gün biz Birgə Bəyannamə qəbul edəcəyik. Bu sənədlə ikitərəfli əlaqələrimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldəcəyimizi bəyan edəcəyik. Bu, həm də yeni bir başlanğıc nöqtəsidir. Biz xalqlarımızın rifahı naminə qarşılıqlı dəstəyi artırmağa davam edəcəyik"

Ümumiyyətlə, liderlərin görüşündə ikitərəfli münasibətlərin ən geniş spektrinə nəzər salındığı vurğulanmalıdır. Liderlər, prinsip etibarilə, elə bir sahə qalmadı ki, onunla əlaqədar fikirlərini bildirməsinlər. Ancaq daha vacib və prinsipial görünən məsələlər var ki, onların üzərində xüsusi dayanmalıyıq. Əvvəla, görüşdə ölkəmizin daim "Vahid Çin" siyasətini dəstəklədiyi vurğulandı. Tayvanda keçirilmiş seçkilərin Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən pislənildiyi, Çinin də Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə etdiyi qeyd olundu. Cənab Cinpin Bakının daim "Vahid Çin" siyasətini dəstəklədiyini bildirdi və buna görə təşəkkürünü ifadə etdi.

Ekstremizmə və separatizmə qarşı mübarizədə ölkələrimizin mövqelərinin üst-üstə düşdüyünün xüsusi qeyd olunduğu görüşdə, həmçinin Azərbaycanın ŞƏT-dəki hazırkı statusunun artırılmasının Çin tərəfindən dəstəkləndiyi, gələn il Pekinin sədrliyi çərçivəsində bu məsələyə xüsusi diqqət yetiriləcəyi vurğulandı. Cənab Cinpin ölkəmizin liderini qurumun Çində keçiriləcək Zirvə toplantısına, eyni zamanda, bu əsnada ölkəsinə dövlət səfərinə dəvət etdi.

***

Əslində, "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"də əksini tapmış müddəalar Azərbaycan və Çin liderlərinin fikirlərindəki xoş niyyətin yazılı təzahürü kimi fundamental xassəyə malikdir. Sənədi iki baxımdan dəyərləndirmək mümkündür. Birincisi, Bakı–Pekin əlaqələrinin mövcud durumu, perspektiv inkişaf trayektoriyasının vurğulanması, ikincisi isə hər iki dövlətin xarici təsirlərə qarşı birgə müqavimət sahələrinin açıqlanması.

Birincidən başlayaq. Bəyannamədə bildirilir ki, tərəflərin strateji tərəfdaşlığı qarşılıqlı hörmətə, bərabərliyə, etimada, münasibətlər isə ərazi bütövlüyü və suverenliyə hörmət, daxili işlərə qarışmama prinsiplərinə əsaslanır, Azərbaycanla Çin xarici amillərdən asılı olmayaraq, bir-birini etibarlı tərəfdaş hesab edir. Həmçinin, tərəflər ticarət-iqtisadi əməkdaşlığının inkişafı üçün nəqliyyat və kommunikasiya, yaşıl enerji, emal və istehsal, infrastruktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı və s. sahələrdə layihələrə diqqət yetirir, "Bir kəmər, bir yol" çərçivəsində əməkdaşlığı dərinləşdirməyi vacib sayır, Çin Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin (Orta dəhliz) tikintisində və istismarında fəal iştirak edir, ölkə, həmçinin COP29-un Azərbaycanda keçirilməsini alqışlayır və ölkəmizin konfransda sədrliyini dəstəkləyir.

***

Bəyannamənin haqqında söz açdığımız 2 – birgə müqavimət tərəfinə gəlincə, mövcud xüsusda vurğulanır ki, Azərbaycanla Çin milli, regional və qlobal təhlükəsizliyin vacib məsələləri ilə bağlı sıx əlaqə və koordinasiya saxlayır, öz ərazilərindən hansısa bir qüvvənin digər tərəfə qarşı istifadəsinə imkan vermir, tərəflər BMT himayəsi altında beynəlxalq sistemi dəstəkləyirlər. Hər iki ölkə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə söykənən beynəlxalq düzənin əsas normalarına riayət edir, real çoxtərəfliliyə sadiqlik göstərir, habelə hegemonluğa və güc siyasətinə, insan hüquqları ilə bağlı məsələlərin siyasiləşdirilməsinə və ikili standartların tətbiqinə, insan hüquqlarının müdafiəsi bəhanəsi altında hər hansı dövlətin daxili işlərinə müdaxiləyə qarşı çıxırlar.

***

Deməli, birgə əməkdaşlıq birgə müqavimət də formalaşdırır ki, əsl tərəfdaşlıq da elə budur. Mövcud prizmadan yanaşsaq, "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"ni münasibətlərdəki yüksək səviyyənin pik nöqtəsi kimi də dəyərləndirmək mümkündür. Ancaq onu da bildirək ki, sözügedən bəyannamə ilə yanaşı, ŞƏT-in Zirvə görüşü çərçivəsində Bakı–Pekin əməkdaşlığının iqtisadi spektri ilə əlaqədar digər sənədlər də imzalanıb. Bütün bunlar ölkəmizin beynəlxalq miqyasdakı nüfuzunun və çəkisinin daha da yüksəldiyini nümayiş etdirir. Bu isə öz növbəsində Prezident İlham Əliyevin yürütdüyü siyasətin, dövlətimizin başçısının şəxsiyyətinə olan hörmət və etibarın təzahürüdür.

Tam qətiyyətlə deyə bilərik ki, Prezident İlham Əliyevin Si Cinpin ilə görüşü, eləcə də imzalanmış mühüm dövlət sənədi Bakı–Pekin münasibətlərini bütün sahələrdə daha da dərinləşdirəcək, qarşılıqlı təmasları və dialoqu intensivləşdirəcək, ikitərəfli əlaqalərə yeni məzmun və keyfiyyət qazandıracaq.

**XQ-nin Analitik qrupu**

# Azərbaycan–Türkiyə birliyi: “Geosiyasi layları” tərpədən müttəfiqlik

III MƏQALƏ

**Qarşıdakı dövrdə can Azərbaycan ilə qardaşlıq hüququmuz və Şuşa Bəyannaməsində ortaya qoyduğumuz ruhla yol getməkdə davam edəcəyik.**

**Rəcəb Tayyib Ərdoğan, Türkiyə Prezidenti**



Azərbaycan–Türkiyə birliyinin nəticəverici siyasi-diplomatik fəaliyyətin nümunəsi kimi qəbul edilməsinin əks-sədası təbiidir. Çünki son 300 ildə ilk dəfədir ki, Cənubi Qafqazda və regionlararası geosiyasi məkanda yeni düzənin yaranması mümkün olur. Aparıcı rolu isə iki türk dövləti oynayır. Bu gerçəkliyi prinsipial olaraq qəbul etmək istəməyən qüvvələr hələ də mövcuddur. Ermənistanla sülh müqaviləsinin imzalanması və Zəngəzur dəhlizinin açılması ilə ümumilikdə, geosiysi dinamika fərqli ritmə keçid edəcəkdir. Qısa bir müddətdə geniş ərazidə geosiyasətin ritmi dəyişəcəkdir. Bu kimi məqamlara görə, Türkiyə–Azərbaycan birliyini hədəf alan cəhdlərin olması gözlənilləndir. Onlar Ermənistanla məhdudlaşmır və qlobal güclər tərəfindən alovlandırıla bilər. Hər bir halda açıqca bu birliyin pozulması və ya aparıcı funksiya yerinə yetirə bilməməsi üçün bir sıra dairələr dəridən-qabıqdan çıxırlar. Onlar, adətən, iki istiqamətdə fəallaşmağa çalışırlar.

## İnformasiya təxribatları

Birinci istiqmət – Azərbaycan və Türkiyə cəmiyyətlərinin birliyini daxildən zəiflətmək. İkinci istiqamət – Azərbaycan və Türkiyənin dövlət və cəmiyyət olaraq bir-birinə etibarını azaltmaq. Bu iki istiqaməti birəşdirən şər-böhtan kampaniyası da özünü göstərir. Məsələn, Azərbaycan və Türkiyə cəmiyyətlərində elə hadisələri qabartmağa çalışırlar ki, onlardan insanların bir-birinə qarşı nifrət etməsi bəhanəsi kimi yararlansınlar. Bu məqsədlə sosial çəkisi az və təsiri çox lokal olan bir sıra məişət hadisələrini böyük sosial problem kimi təqdim etməyə cəhd göstərirlər. Deyək ki, Türkiyənin hansısa əyalətində bir azərbaycanlının məişət çətinliklərini az qala milli problem kimi təsvir edirlər. Və ya Azərbaycanda hər hansı Türkiyə vətəndaşına qarşı rəsmi səviyyədə sıxışdırmaların olduğu təəssüratını yaratmağa çalışırlar. Reallıqda isə bunların heç biri, ümumiyyətlə, baş vermir və ya tamamilə fərqli səbəblərdən özünü göstərir.

Son zamanlar Azərbaycanın bir sıra KİV orqanları, o cümlədən, saytlar bu kimi yanlış işlərə baş vururlar. Məsələn, saytlardan biri yazır ki, “yerli əhali Türkiyədən qaçır”. Maraqlıdır, hara gedir Türkiyə vətəndaşları? Sən demə, Misirin hansısa “daha ucuz” olan istirahət zonasına. Bu absurd uddiaların ömrü 1-2 gün olur. Çünki reallıq tamam başqa gerçəkliyi ortaya qoyur. Lakin nəyə görə qardaş dövlət haqqında belə cəfəng informasiyalar verilsin?

Və yaxud Xarici İşlər naziri Hakan Fidanın III Dünya müharibəsi ehtimalı ilə bağlı dedikləri kontekstdən çıxarılaraq Türkiyənin bu savaşa hazırlaşması kimi təqdim edilir. Özü də elə ruhda informasiya verirlər ki, guya, müharibəyə Türkiyə hazırlaşır, yəni sülhsevər deyil, başqalarına hücuma hazırlıq görür. Sonra isə bir Avropa dövlətinin III Dünya savaşına hazırlığını yarana biləcək böhrana hazırlıq kimi, konkret olaraq ərzaq qıtlığının olmamasına ehtiyat tədbiri görmək kontekstində verirlər. Əslində isə H.Fidan məhz Türkiyədən asılı olmayan səbəblərə görə müharibənin ola bilməsi ehtimalı fonunda dövlətin ehtiyat tədbirləri (ilk olaraq ərzaqla bağlı) görməsi vacibliyini vurğulamışdı. Özü də bunu Türkiyənin ətraf regionlarda savaşları dayandırmaq istiqamətində atdığı diplomatik addımlara bir sıra dövlətlərin lazımi dəstək verməməsi fonunda bəyan etmişdi. Yəni Türkiyə sülh, barış üçün çalışır, lakin bir sıra güclü dövlətlər bunun əksinə hərəkət edirlər. Azərbaycan KİV orqanlarının birində bu gerçəkliyi anti-Türkiyə ruhda təhrif etməsinin arxasında hansı məqamların dayandığını anlamaq çətin deyildir. Onu da vurğulayaq ki, eyni qaydada Türkiyənin bir sıra KİV orqanlarında Azərbaycan haqqında informasiya verənlər mövcuddur. Məsələn, SOKAR-a qarşı məlum təxribatçı hərəkətləri anti-Azərbaycan ruhlu insanla çalışdığı informasiya mənbələri oldu. Bir qədər öncə Türkiyə siyasətçiləri arasında Azərbaycana qarşı sırf təxribatçı fikirlər bildirənlər də olmuşdu.

## Birliyi zəiflətmək cəhdləri

Məsələ yuxarıda vurğulanan istiqamətlərlə məhdudlaşmır. Hər iki ölkənin cəmiyyətlərində daxili birliyi müxtəlif maskalarla zəiflətmək cəhdləri son zamanlar güclənmiş kimi görünür. Onlar həm ayrılıqda Azərbaycan və Türkiyə cəmiyyətləri üçün müşahidə olunur, həm də iki qardaş toplumun bir-birinə etimadının azaldılması istiqamətində informasiya təxribatları törətməyə çalışırlar.

Bundan başqa, Azərbaycan dilinə qarşı bir sıra KİV-də doğru olmayan münasibətlə rastlaşırıq. Bəziləri yazırlar ki, “qida istehlak edilir”. Bu nə deməkdir? Azərbaycan dilində qida qəbul edilir, qida yeyilir (məsələn, alma yeyilir) və ya filmdə deyildiyi kimi “şərab istemal edilir” deyilir.

Bir elektron KİV orqanı sürücülərə cəzaların kəsilməsi ilə bağlı informasiya verir və orada yazır ki, “protiv” sürən sürücülər”. Azərbaycan dilində “protiv”, “uje”, “koneşno” və s. kimi sözlər var? Azərbaycan dilini təmizləmək adı altında rus sözləri ilə onu korlamaqda məqsəd nədir? Maraqlıdır ki, KİV-də bu kimi hallarla mübarizə aparmalı olan orqan da hələlik susur. Bir zamanlar “dili təmizləmək lazımdır”, deyib car çəkən həmin qurum üçün “protiv” sözünün və ona bənzər yad sözlərin işlədilməsi təmizlik əlamətidirmi?

Qətiyyən, yox! Əksinə, bu, dövlət dilinə qarşı olan təxribatlardan birinin nümunəsidir. Çünki KİV-də bu kimi yanlışlıqları həyat və danışıq norması kimi qəbul edənlərin sayı artır. İndi danışıqlarda rus kəlmələrini işlətmək və ya Bakı küçələrində hıqqana-hıqqana rusca danışmağa çalışan gənclərimizi görmək çox utandırıcıdır. Gənc azərbaycanlı ananın öz kiçik yaşlı övladı ilə rusca danışmasını eşitmək insanı mütəəssir edir. Söhbət, ümumiyyətlə, hansısa dildə danışmağı qadağadan qətiyyən gedə bilməz. Məsələ bu yanlış və riskli tendensiyanın yayılması və az qala, həyatda uğurlu olmağın normalarından birinə çevrilməsi ilə bağlıdır. Bu kimi yanlışlıqlar təhsil müəssisələrinə və elmi araşdırma institutlarına sıçrayır. Elə elmi iddiaçı olur ki, dövlət dilində fikrini izah edə bilmir, gərək onu yad dildə dinləyəsən.

Bu və buna bənzər hadisələr cəmiyyətin bütövlüyünə, gənclərin milli ruhda tərbiyəsinə zərər verən olaylardır. Təbii ki, əgər bu tendensiya inkişaf etsə, bütövlükdə toplumun bütövlüyünə ziyan verə bilər. Azərbaycan cəmiyyətinin özünü identifikasiya fəlsəfəsi yanlış tərəfə dəyişə bilər və yekunda parçalanma meyli yaranar. Vətəndaşlar psixoloji və mədəniyyət baxımından bir-birindən uzaqlaşsalar, onun neqativ sosial-mədəni nəticələrini görməli olacağıq.

Bunlarla yanaşı, KİV-də azərbaycanlılıqla uyğun gəlməyən kültür elementi kimi təqdim edilən informasiyalar da verilir. Onlarda bir qayda olaraq, azərbaycanlı əxlaqına uyğun olmayan məqamlar özünü göstərir. Bu proses dərinləşsə və davam etsə, sosial-mədəni birliyimiz riskə düşə bilər. Həmin tendensiyanın fonunda türklərə qarşı süni neqativ münasibət yaratmağı hədəfləyən, lakin üstüörtülü təqdim edilən informsiyalar da son zamanlar çoxalan kimi görünür.

Məsələn, qonşu dövlətlərdən hər hansı biri haqqında müsbət informasiyanın yanında türk insanına yaraşmayan bir hadisəni təsvir edən məlumat verilir. Bu yanaşı olan informasiyaları müqayisə edən, əlbəttə, yanlış nəticə çıxaracaq. Çox qəribədir ki, bu saxta üsulu hətta idman xəbərlərinə də tətbiq etməyə çalışırlar. Məsələn, yazırlar ki, “məşqçi Arda Güləri məşqdən qovdu”, lakin deyək ki, bir avropalı haqqında elə yazmırlar. Yazırlar ki, “filan oyunçuya məşqçi istirahət verdi” və ya “məşq etməyə buraxmadı” və s.

Dövlət haqqında da bu kimi “xırda və təsadüfi yanlışlıqlara” yol verilir. Və ya adətən, “jurnalist müstəqildir” kimi qondarma müdafiə üsulundan istifadə etməyə çalışırlar. Özlüyündə, əlbəttə, jurnalist müstəqil olaraq fikrini ifadə edə bilər. Lakin, nədənsə, son zamanlar bu “müstəqil ifadə” daha çox “antitürk rəngi”ndə olur. Türkiyə dövləti haqqında bir sıra hallarda informasiya üstüörtülü istehza ibarəsi ilə verilir, Azərbaycana düşmən olan dövlətlərdən bəziləri haqqında obyektiv, daxili hörməti əks etdirən ifadələr işlədilir. Məsələn, bir KİV yazır “Oman körfəzində filan dövlətin gəmisini saxladılar”. Buna bənzər hadisə Türkiyəyə aiddirsə, istehza və bir qədər aşağılayıcı tonda informasiya verirlər (söhbət bütövlükdə Azərbaycan KİV-dən getmir).

Eyni nümunələrə bir sıra Türkiyə KİV orqanlarında da rast gələ bilərik. Bütün bunların xüsusilə son zamanlar artması bütövlükdə Azərbaycan-Türkiyə birliyinə qarşı informasiya savaşının gücləndirilməsindən xəbər verir. Belə bir situasiyada düşünürük ki, Azərbaycanda həm dilin təmizliyinə, həm də obyektivliyinə diqqət daha da artırılmalıdır. Dili və şüurları yad kəlmələrdən (rus və ingilis) və düşüncələrdən təmizləməyin zamanıdır.

Burada başqa bir informasiya təxribatı məqamını da vurğulamaq lazımdır. Məsələ bundan ibarətdir ki, Azərbaycan–Türkiyə birliyinə qəsdlər daha geniş geosiyasi kontekstdə də baş verir. Burada birbaşa deyil, dolayısı ilə, adətən, hər iki dövlətin etibarsızlıq imicini yaratmağa çalışmaqla hərəkət edirlər. Bunun nümunələrindən biri Suriya ilə Türkiyə rəhbərliyinin terrora qaşrı birgə mübarizə aparmağa hazır olduqları ilə bağlı bəyanat verməsindən sonra meydana çıxan bəzi hadisələrdir.

Suriyanın şimalında Türkiyə bayrağını yandırırlar və Kayseri şəhərində suriyalılara qarşı təxribat törədilir. Səbəbini isə namusla bağlı bir olay təşkil edir. Və sonra bu iki informasiyanı bir-biri ilə əlaqəli şəkildə verirlər. Klassik informasiya müharibəsi nümunəsidir. Onu da nəzərə almaq lazımdır ki, bu kimi təxribatçı informasiyalar Azərbaycan və Türkiyə rəhbərliyinin siyasi-diplomatik fəallıqlarını geniş bir geosiyasi məkanda əməkdaşlıq və təhlükəsizlik naminə daha da gücləndirdikdə yayılır. Bütün bunlardan hansı nəticələri çıxarmaq olar?

## Birliyin yeni mərhələsi

Azərbaycan–Türkiyə birliyinin indiki mərhələdə bütün çalarları üzərində məqalədə dayanmaq, təbii ki, mümkünsüzdür. Lakın qısa müqayisələr də göstərir ki, iki qardaş dövlət regional və multiregional əməkdaşlıq, birlik, təhlükəsizlik və yardımlaşma istiqamətlərində yeni səviyyəyə qədəm qoymuşlar. Bunun ən yaxşı ifadəsi Azərbaycan Prezidentinin çoxaspektli siyasi-diplomatik addımlarında özünü tapmaqdadır. Azərbaycan cəmiyyəti öz Prezidentinə ciddi dəstək verməlidir. Cəmiyyət daxili gücünü dövlət başçısının təşəbbüslərini dəstəkləməyə yönəltməyi yeni səviyyəyə, daha mütəşəkkil formaya çatdırmalıdır. Çünki Azərbaycanın müstəqil dövlət kimi gələcək uğurları məhz Prezidetin proqramlarının həyata keçirilməsi ilə birbaşa bağlıdır. Eyni münasibət Türkiyə cəmiyyətində Türkiyə Prezidentinə olmalıdır.

Bunların fonunda Azərbaycan və Türkiyə media vasitələri öz ölkələri və cəmiyyəti haqqında maksimum dərəcədə obyektiv informasiyalara üstünlük verməlidirlər. Kənardakı müxtəlif gizli qaynaqların təsirinə uymaq xəyanətdir. Dərk etməliyik ki, məsələ yalnız iki qardaş dövlətin gələcəyi ilə əlaqəli deyildir – söhbət, bütövlükdə, geniş bir coğrafiyada çox sayda xalqların həyatından, normal yaşamasından və inkişafından gedir. Yerli xalqlar arasında nifaq salmq böyük düşmənçilikdir. Heç bir halda düşmən qonşular xoşbəxt yaşaya bilməzlər. Onlar daim bir-birinə qarşı təxribat törədəcək, münaqişəyə girəcəklər ki, bunun da sonu yoxdur. Deməli, istər Azərbaycanda, istərsə də Türkiyədə kim ki, yerli xalqların birini o birinə pisləyir, o, birbaşa xalqın, dövlətin və müstəqilliyin düşmənidir.

Azərbaycanda əsrlərdir xalqlar mehriban qonşuluq şəraitində yaşayırlar. Onların arasında ixtilaf yoxdur. Türkiyədə də eyni qaydada çox sayda xalqlar əsrlərdir ki, bir dövlətin çətiri altında həyat sürürlər. İndi onları bir-birinə qarşı qoymaq heç bir şərt daxilində müsbət hal sayıla bilməz. Bir cəmiyyətdə birlik olmayanda isə onun başqa heç bir cəmiyyətlə əlaqələri real müsbət ola bilməz. Çünki özünün bütövlüyünü təmin edə bilməyən toplumun başqasının da birliyinə töhfəsi olmaz. Nəticədə onların hər ikisi əbədi münaqişələr burulğanına düşmüş olar.

Buna görə də Azərbaycan–Türkiyə birliyi indiki mərhələdə xeyli dərəcədə informasiya müharibəsindəki mübarizədən asılıdır. Hər iki cəmiyyət kimsənin araya müdaxilə etməsinə imkan verməməlidir. Azərbaycan və Türkiyə birliyi iki müstəqil dövlətin bərabərhüquqlu tərəfdaşlar kimi müttəfiqliyidir.

Onlar ayrılıqda güclü müstəqil dövlət olaraq qalmalıdırlar. Birgə fəaliyyət isə beynəlxalq hüquq və bərabərhüquqluluq əsasında tənzimlənir. Azərbaycan və Türkiyə hüquqi cəhətdən də qoşa olaraq inkişaf edən müstəqil dövlətlərdir. Deməli, onların birliyi həm də xalqların normal və müstəqil inkişafının təminatıdır. Burada gizli fikirlər axtarmaq və ya onları uydurmaq, öz dövlətinin və xalqının müstəqilliyinin əleyhinə olmaq deməkdir! Yəni Türkiyə ilə bir yerdə olmaq Azərbaycanın müstəqil olmasının təminatlarından biridir. Eynilə Azərbaycanla bir yerdə olmaq Türkiyənin müstəqil olmasının təminatlarından biridir! Hər iki ölkənin insanları bu qiymətli və təbii dəyərin qədrini bilməlidirlər!

Məsələnin başqa tərəfi multiregional geosiyasi miqyasla bağlıdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Yeni simalar Avropanın da siması ola biləcəklərmi?

## *“Köhnə qitə”nin nimdaş mənzərəsi təzələnəcəkmi?*

**Kütləvi informasiya vasitələri xəbər verirlər ki, yaxın vaxtlarda Avropa qurumlarının bəzi rəhbərlərinin dəyişdirilməsi və ya onların fəaliyyətinə yenidən baxılması barədə qərar qəbul ediləcək. Belə ki, Estoniyanın baş naziri Kaya Kallas Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borreli, Portuqaliyanın keçmiş baş naziri Antoniu Koşta isə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişeli əvəzləyəcək. Bununla yanaşı, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin də həmin vəzifəyə yenidən irəli sürülməsi məsələsi müzakirə ediləcək. Avropa Parlamenti bu təyinat və müzakirələri iyulun 15-də gündəliyə çıxaracaq. Ancaq həmin məsələlər indidən kütləvi informasiya vasitələrinin gündəliyindədir.**

Xatırladaq ki, Jozep Borrell və Şarl Mişel sadə azərbaycanlının xatirəsində dediyi sözlərin üstündə dura bilməyən siyasətçi kimi qalıblar. Heç kəsin yadından çıxmayıb, 2022-ci il oktyabrın 6-da Praqada Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron, Ermənistanın Baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında keçirilmiş görüşdən sonra verilən bəyanatda deyilirdi ki, Azərbaycan və Ermənistan BMT-nin nizamnaməsinə və bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyan 1991-ci il Alma–Ata Bəyannaməsinə sadiqliklərini təsdiq edirlər. Hətta, Fransa Prezidentinin saytının yaydığı bəyanatda da belə vurğulanırdı.

Bəs sonra nə oldu? Ermənistanın baş naziri Nikol Paşinyan tədbir haqqında mətbuata heç bir məlumat vermədən ( digər üç siyasətçi mətbuat üçün bəyanat vermişdi) Moskvaya qaçdı ( “uçdu” ifadəsi onun mövqeyini az ifadə edirdi), Emmanuel Makron cəmi bir neçə saatdan sonra öz dediklərini 180 dərəcə altında çevirib tamamilə başqa fikirlər səsləndirməklə riyakarlıq, saxtakarlıq və ikiüzlülük elədi. Şarl Mişel və Jozep Borrell isə sadəcə, Makronun əlaltısı olduqlarını gizlədə bilmədilər.

Hələ bu, harasıdır, Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrell bu il yanvarın 22-də Brusseldə demişdi ki, Prezident Əliyevin Ermənistana ərazi iddiaları narahatlıq dogurur: “Ermənistanın ərazi bütövlüyünün hər hansı şəkildə pozulması yolverilməzdir və Azərbaycanla münasibətlərimiz üçün ciddi nəticələrə səbəb olacaq”.

Yəni açıq-açığına Azərbaycanı hədələyirdi. Söhbət hansı ərazi iddiasından gedirsə, məlum deyil. Azərbaycanın belə bir iddiası olmayıb. Ermənistan isə Azərbaycana olan ərazi iddialarını işğalla başa çatdırmış və bizim torpaqlarımızın 20 faizi otuz il qarət edilmiş, yandırılmış, viranəyə çevrilmiş, tarixi, mədəni, dini abidələrimiz yer üzündən silinmişdi. Bəs o zaman Jozep Borrel və onun təmsil etdiyi qurum harada ölüb, itib, batmışdı ki, o boyda vəhşiliklərdən, barbarlıqdan xəbərləri olmamışdı? Bu adam utanmadan demişdi ki, Aİ ölkələri diplomatları Azərbaycandan qovulmuş Fransa ilə həmrəylik ifadə edir. Qitə miqyaslı beynəlxalq qurumda mühüm vəzifə tutan bir şəxsin bizim Fransa diplomatlarına həqiqəti söyləməyimizi onların ölkədən qovulması kimi qəbul etməsi, sadəcə, qərəz və məkrdən yaranan öləzik düşüncə tərzi idi.

Elə Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen də Avropanın hansısa paytaxtında olanda Cənubi Qafqaz haqqında özünəməxsus siyasi-diplomatik fikirlər səsləndirir, İrəvanda soyqırımı abidəsini ziyarət edəndən sonra tamamilə fərqli mövqe nümayiş etdirir, Azərbaycan Prezidenti İlham Əliyevə zəng edəndə isə 2022-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətindən danışırdı. Bu xanım siyasətçi Azərbaycana münasibətdə digər avropalılar kimi olmasa da, hansısa konkret müsbət addımını da görə bilmədik.

Məhz elə ona görə də Mişel və Borrell kimi riyakar adamların vəzifədən getməsi onsuz da heç bir üzaqlığı olmayan Avropaya, az da olsa, nüfuz gətirə bilər. Amma kim zəmanət verə bilər ki, yeni gələn simalar əvvəlkilərdən fərqli olacaqlar? Bunu hələ ki, heç kəs bilmir.

Ümumiyyətlə, kadr dəyişiklikləri Avropa İttifaqının Cənubi Qafqaz siyasətində hansısa yeniliklər edə biləcəkmi? Caliber.az bu mövzuya münasibət bildirmək üçün əcnəbi ekspertlərə müraciət edib. Estoniyalı politoloq Peetr Taym əmindir ki, yeni təyinatlıar Bakı ilə Yerevan arasında münasibətlərin normallaşdırılmasına töhfə verə biləcək: “Çünki istənilən Avropa siyasətçisi və ya məmuru bu ölkələrin barışmasını istəyir”. İrlandiyalı politoloq Patrik Uolş isə bu suala cavab verərkən tərəddüd içərisində imiş: “Mən inanmıram ki, Avropa İttifaqının yeni kadrlarının əsas istiqamətində hansısa dəyişiklik baş versin: “Çünki Avropa İttifaqı ABŞ-nin diktəsi ilə Cənubi Qafqazda ekspansiya siyasəti yürüdür”.

İsrail analitiki, siyasətçi və ictimai xadimi David Eydelmanın fikrincə, Avropa İttifaqında yeni vəzifəyə təyin olunacaq şəxslərin fəaliyyət istiqaməti təkcə onların özlərindən deyil, həm də bir çox başqa faktlardan asılı olacaq: “Azərbaycana və Cənubi Qafqaza münasibətdə yeni kadrların gələcək mövqeyi haqqında danışmaq çox çətindir. Çünki onların mövqeyi ABŞ-də keçiriləcək seçkilərdən və Ukraynada gedən müharibənin nəticələrindən də asılı olacaq”.

***İttifaq MİRZƏBƏYLİ***

# Şanxay Əməkdaşlıq Təşkilatı Avropaya doğru genişlənir

## Azərbaycanın bu qurumla əməkdaşlığı ölkəmizin beynəlxalq nüfuzunu yüksəldir

**Dünyanın 16 ölkəsinin dövlət və hökumət başçısının qatıldığı "ŞƏT+" formatlı Astana Sammitinin gündəliyindəki əsas mövzu "Avrasiya təhlükəsizlik sistemi"-nin müzakirəsi idi. Moskvanın müəllifi olduğu bu ideya çoxqütblü dünyanın qurulması prosesində əhəmiyyətli addım kimi qiymətləndirilirdi.**

ŞƏT-in Astana Sammitinin dünyanın diqqətini özünə cəlb etdiyini söyləyə bilərik. Ən azı ona görə ki, genişlənməkdə olan ŞƏT-in Qazaxıstan paytaxtında düzənlənən növbəti zirvə görüşünə Asiya "divləri" ilə yanaşı, BMT-nin Baş katibi şəxsən təşrif buyurmuşdu. Dünya iki gün ərzində Qərb və Şərq adlandıra biləcəyimiz güc mərkəzləri arasında gedən qlobal mübarizənin virtual mənzərəsini izlədi.

Getdikcə daha da kəskinləşən bu mübarizədə Azərbaycan özünü hər iki platformada rahat hiss edən nadir tərəfdaşlardan sayılır. Bu mənada Qərb cinahın Azərbaycanla sıx əməkdaşlığa çalışması və oxşar meyillərin Şərq cinahda da sezilməsi ölkəmizin seçdiyi düzgün strategiyanın nəticəsidir, – desək, yanılmarıq. Bu strategiyanın müəllifi İlham Əliyevdir. Çin, Rusiya, Hindistan kimi dünyanın siyasi və iqtisadi nəhənglərinin liderləri Azərbaycan Prezidenti İlham Əliyevlə ikitərəfli təmaslara və əməkdaşlığa ayrıca önəm verirlər. Misal üçün, ŞƏT-in Astana Sammiti çərçivəsində Çin lideri Si Szinpin İlham Əliyevlə görüşündə Azərbaycanla əlaqələri yüksək qiymətləndirdiyini söylədi və dövlətimizin başçısını ölkəsinə dəvət etdi. Yaxud Rusiya Prezidenti Vladimir Putin Azərbaycan lideri ilə qlobal və regional məsələləri müzakirə etdi, nəqliyyat dəhlizləri üzərində xüsusilə dayandı.

Bütün bunlar Azərbaycanın artmaqda olan qlobal nüfuzunun göstəricisidir. Astanada dünya liderlərinin İlham Əliyevlə görüşdə transmilli nəqliyyat dəhlizlərindən bəhs etmələri, bu məsələdə Azərbaycan liderinin mövqeyinə əhəmiyyət vermələri, eləcə də Azərbaycan, Türkiyə və Pakistan liderlərinin üçtərəfli görüşü ən vacib məqamlardandır. Çünki bu üç ölkə qurulan yeni dünya nizamında, eləcə də Orta dəhliz coğrafiyasında aparıcı oyunçulardır və onların ortaq mövqeyi həm bu coğrafiyada təhlükəsizliyin təmin olunması, həm də hər üç ölkənin milli maraqlarının müdafiəsi baxımından əlahiddə əhəmiyyət kəsb edir.

Yeri gəlmişkən, oxucuların nəzərinə çatdıraq ki, ŞƏT-in Astana Zirvə görüşündə 16 ölkənin – Qazaxıstan, Hindistan, İran, Çin, Qırğızıstan, Pakistan, Rusiya, Tacikistan, Özbəkistan, Belarus, Monqolustan, Azərbaycan, Qətər, BƏƏ, Türkiyə və Türkmənistanın dövlət və hökumət başçıları, həmçinin ŞƏT katibi və BMT-nin Baş katibi iştirak ediblər.

### Azərbaycan bərabərhüquqlu tərəfdaşdır

Prezident İlham Əliyevin Astanaya səfəri çərçivəsində Çin, Rusiya, Türkiyə, Pakistan və Qazaxıstan dövlət başçıları ilə keçirdiyi ikitərəfli görüşlərdə ölkələr arasında münasibətlərin inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılıb. Həmin görüşlərdə Çin lideri Si Cinpin ilə aparılan müzakirələr ayrıca qeyd olunmalıdır. Astanada imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin ölkələrarası münasibətlərdə, regional və qlobal təhlükəsizlik, terrorizm və separatizmə qarşı mübarizədə, iqtisadi, humanitar, turizm sahələrində əməkdaşlığın genişləndirməsində xüsusi yerə malik olacağı şübhəsizdir. Birmənalı şəkildə qeyd edə bilərik ki, Azərbaycan Asiya nəhəngləri ilə bərabərhüquqlu tərəfdaşlıq münasibətlərinin keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur.

Dünən "ŞƏT +" formatında keçirilən görüşdə çıxış edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev BMT-nin alternativinin olmadığını, onun potensialının hələ tükənmədiyini bildirib və bu universal təşkilatın rolunu gücləndirməyi beynəlxalq ictimaiyyətin vəzifəsi hesab edib: "Bu universal təşkilatın alternativi yoxdur. Bizim ümumi vəzifəmiz XXI əsrin çağırışları ilə səmərəli mübarizə aparmağa qadir olan qlobal təhlükəsizliyin təmin edilməsində əsas beynəlxalq təsisat kimi BMT-nin rolunu gücləndirməkdir".

ŞƏT-in Astana Zirvə görüşündə BMT-nin Baş katibi Antonio Quterreşin çıxışı da maraqla qarşılanıb. Baş katib çıxışında bu il Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) da toxunub. O, iqlim dəyişikliyi ilə səmərəli mübarizə aparmaq üçün ciddi maliyyə öhdəliklərinə nail olmağın vacibliyini önə çəkib: "Maliyyələşdirmə çox böyük əhəmiyyət kəsb edir. Bu, təkcə iqlim dəyişikliyi ilə mübarizəyə yardım məqsədli deyil, həm də bərabərsizliklə mübarizə aparmaq üçün vacibdir. Builki COP29-dan sonra bizə hər iki tərəfdən güclü maliyyə öhdəlikləri, eləcə də çoxtərəfli inkişaf banklarının kredit imkanlarını davamlı şəkildə artırmaq və iqlim dəyişikliyi ilə mübarizəyə daha çox özəl kapital cəlb etmək üçün onların biznes modelini dəyişdirmək üçün qətiyyətli addımlar lazımdır", – deyə vurğulayıb.

Baş katib sözlərinə onu da əlavə edib ki, dünyanın inkişaf etmiş ölkələri məsuliyyəti öz üzərinə götürərək və uyğunlaşma maliyyəsini ikiqat artıraraq öhdəliklərini yerinə yetirməlidirlər.

### Bakı "ŞƏT plyus" formatında

Azərbaycan üçün ŞƏT platforması Asiyanın böyük güclərini birləşdirən nüfuzlu qurum olaraq böyük əhəmiyyətə malikdir. Yeri gəlmişkən, onu da qeyd edək ki, Prezident İlham Əliyev ilk dəfə 2022-ci ildə ŞƏT-in Səmərqənd Sammitində fəxri qonaq qismində iştirak edib və son iki ildə Azərbaycan–ŞƏT əməkdaşlığı yüksələn xətt dinamikasına malikdir. ŞƏT həm də Azərbaycanın öz səsini və mövqeyini dünyaya çatdırması üçün vacib platformaya çevrilib. Marşrutları Azərbaycan ərazisindən keçən "Şimal–Cənub" və "Şərq–Qərb" nəhəng nəqliyyat layihələrinin reallaşmasına gözləntilərin artması ilə ölkəmizin ŞƏT dövlətləri üçün əhəmiyyəti də ikiqat çoxalıb.

Onu da qeyd edək ki, bu layihələrdə mühüm halqa olmaq üçün zəruri infrastrukturu Azərbaycan özü yaratdı. Bu kontekstdən yanaşanda Orta dəhlizin tərkib hissəsi olan Bakı–Tbilisi–Qars dəmir yolunun Azərbaycan sərmayəsi ilə inşa edildiyini xatırlatmaq kifayətdir. Bakıya xüsusi diqqətin artması həm də planetin ən böyük ekoloji forumunun – COP29-un ölkəmizdə keçirilməsi ilə bağlıdır. Azərbaycanın COP29-a evsahibliyi etməsi onun qlobal səviyyədə siyasət apardığının, nüfuzlu beynəlxalq aktora çevrildiyinin göstəricisidir.

Prezident İlham Əliyevin Astanaya səfəri çərçivəsində Çin, Rusiya və Qazaxıstan liderləri ilə keçirdiyi görüşlər ikitərəfli münasibətlərin, eləcə də qarşılıqlı etimadın yüksək səviyyəsindən xəbər verir. Astanada Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş ciddi maraq doğurub. Bütün bunlar Azərbaycanın düşünülmüş xarici siyasətinin, çoxtərəfli və ikitərəfli diplomatiyasının uğurlu nəticəsidir. Bundan əlavə, Azərbaycanın ŞƏT sammitində iştirakını tam əminliklə ölkəmizin təkcə Şərqlə Qərbi deyil, həm də Şimalla Cənubu birləşdirən körpü rolunu getdikcə daha inamla oynadığının sübutu kimi qiymətləndirilməlidir.

Azərbaycan Prezidenti İlham Əliyev Astanada "ŞƏT +" formatında görüşdə çıxış edərək quruma üzv ölkələrin liderlərini noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) dəvət etdiyini bildirib: "Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik. Mən artıq ŞƏT-ə üzv dövlətlərin liderlərinə rəsmi dəvət məktubları ünvanlamışam və həmkarlarımı noyabrda Bakıda görəcəyimə ümid edirəm".

### Belarus ŞƏT-in 10-cu üzvü oldu

Dünən foruma sədrlik edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev belaruslu həmkarı Aleksandr Lukaşenkonu xüsusilə salamlayıb: "Qısa müddət ərzində ölkəniz Şanxay Əməkdaşlıq Təşkilatına tamhüquqlu üzv olmaq üçün bütün lazımi addımları atıb. Əgər etiraz yoxdursa, iclasa Belarus Respublikasının ŞƏT-ə qəbulu ilə bağlı sənədlərin imzalanması mərasimi ilə başlamağı təklif edirəm". Bunun ardınca Astana Sammitində iştirak edən dövlət və hökumət başçıları Belarusun ŞƏT-ə üzv qəbul edilməsi haqqında sazişi imzalayıblar. Beləliklə, Belarus ŞƏT-in 10-cu üzvü seçilib.

ŞƏT Dövlət Başçıları Şurasının iclasının yekunu olaraq Astana Bəyannaməsi, 20 qərar, dövlət başçılarının 3 bəyanatı, o cümlədən "Ədalətli sülh, harmoniya və inkişaf naminə dünya birliyi haqqında", "ŞƏT-in təkmilləşdirilməsi haqqında" təşəbbüs qəbul edilib. Bununla da ŞƏT-in Astana Zirvə toplantısı öz işini başa çatdırıb.

***İmran BƏDİRXANLI***
***XQ***




**Ekspert rəyi**



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, polotoloq**

Astanada Azərbaycan və Rusiya prezidentləri arasında keçirilən görüş xüsusi əhəmiyyətə malikdir. Onların görüş əsnasında səsləndirdikləri protokol rəqəmlərinin və apardıqları fikir mübadiləsinin arxasında iki ölkə arasında münasibətlərin daha sıx formatda inkişafı dayanır. Bunlar ümumi maraqlar üzərində qurulmuş möhkəm tərəfdaşlıq körpüləri, beynəlxalq platformalarda bir sıra məsələlər üzrə mövqelərin, belə siyasi təmasların üst-üstə düşməsi deməkdir. Təbii ki, bu amilərin sırasına ikitərəfli razılaşmalara uyğun olaraq artan ticarət dövriyyəsi də daxildir.

Qeyd etmək vacibdir ki, Azərbaycan–Rusiya əməkdaşlığı müxtəlif istiqamətlərdə inkişaf edir. Məsələn, humanitar istiqamət, təhsil sahəsi – tələbə və məktəblilərin tədris mübadiləsi və sairə. Şübhə yoxdur ki, bu amillər Azərbaycan və Rusiyanın iştirakçısı olduğu geosiyasi proseslərdə də özünü göstərir. Doğrudur, bəzi mövzulara yanaşmada müəyyən mənada fərqli mövqelərə malik olmasına baxmayaraq, şimal qonşumuzla münasibətlərimiz həmişə qarşılıqlı hörmət, səmimi anlaşma və konkret nəticələrə nail olma xarakteri daşıyır.

Hesab edirəm ki, Astana görüşü zamanı dövlət başçıları Şimal–Cənub dəhlizinin infrastrukturunun Azərbaycan ərazisində genişləndirilməsinə yönəldiklərini bildirdilər. Bu isə çox vacibdir, çünki söhbət bütün sahələr üzrə əməkdaşlığın daha da dərinləşməsindən gedir. Ümumiyyətlə, dövlət başçılarının Astana görüşü bir daha göstərdi ki, Rusiya və Azərbaycan arasında imzalanmış bütün anlaşmalar uğurla həyata keçirilir və real həyatda öz əksini tapır.

**Ekspert rəyi**



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzininn rəhbəri**

Azərbaycan üzvlərinin sayı getdikcə artan Şanxay Əməkdaşlıq Təşkilatına böyük maraq göstərir. ŞƏT rəsmi Bakı üçün həm regional təşkilat olaraq, həm də quruma üzv ölkələrlə ikitərəfli münasibətlərin qurulması baxımından əhəmiyyətə malikdir. Prezident İlham Əliyev Astanada keçirdiyi görüşlərdə gələcəyə hesablanmış çox maraqlı fikir mübadilələri apardı. Çinlə ölkəmiz arasında strateji əməkdaşlığı nəzərdə tutan bəyannamənin imzalanması Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb edir. Dünya iqtisadiyyatının liderlərindən biri sayılan Çin yüklərinin Orta dəhliz və Azərbaycan vasitəsilə Avropa bazarlarına daşınması bizim maraqlarımızla üst-üstə düşür.

Bu baxımdan Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına marağı təbiidir. Orada qardaş türk dövlətləri də yer aldığına görə əməkdaşlığın inkişafında maraqlıyıq. Gələcəkdə Azərbaycanın bu quruma üzvlüyü məsələsi gündəliyə salına bilər. Dünən Belarus ŞƏT-ə qəbul edildi, Türkiyənin də bu təşkilata isti münasibətləri var. Prezident Rəcəb Tayyib Ərdoğanın Astana Zirvə görüşündə iştirakı, burada görüşlər keçirməsi də təsadüfi deyildi.

Ümumiyyətlə, bu gün dünyada intensiv inkişaf edən az təşkilat var. Nəzərə alsaq ki, dünyada son vaxtlar regional təşkilatlara meyil güclənib, onların arasında irəlidə gedəni məhz Şanxay Əməkdaşlıq Təşkilatıdır. Yarananda beynəlxalq terrorizmə, narkotiklərlə mübarizə üçün düşünülsə də, getdikcə iqtisadi əməkdaşlıq, ortaq layihələr gündəmə gəldi. Bu baxımdan Azərbaycanın ŞƏT-də iştirakı hər tərəfdən faydalıdır.

**Replika**

# Samvel "dərd"ini narkotiklə dağıdır?

**Bu ermənilərdən nə desəniz gözləmək olar. Onların rahat və təminatlı yaşayış üçün dünyanın istənilən nöqtəsini özlərinə vətən seçmələrindən tutmuş, pul qazanmaq üçün ağlagılməz üsullara əl atmalarına qədər hər şeyə getdikləri indi təkcə bizə deyil, bütün dünyaya bəllidir. Paxıllıq, yalan və ikiüzlülük, xəyanət və mərdiməzarlıq, çörəyi dizinin üstündə olmaq bunların boyuna biçilmiş etnik natamamlıq kompleksləridir. Və bu mərəzlərdən qurtulmaq bir ayın, üç ilin, on ilin də məsələsi deyil. Bu məqamda genetika elmi deyir ki, qanın yoluxucu viruslardan təmizlənməsi üçün azı iki nəsil dəyişməlidir. Yəni bunların murdarlanmış qanı bəlkə yüz ildən sonra mənfi test verə, ya verməyə...**

Deyəsən, Qarabağdakı separatçı rejimin sonuncu "qəhrəmanlarından" sayılan Samvel Şahramanyan da özünə yeni və asan qazanc mənbəyi tapıb. Xankəndidən İrəvana qaçan, özünü buraxmış separatçıların liderinin burada başına gəlməyən oyun qalmayıb. Ermənistan Daxili İşlər Nazirliyi əvvəlcə ona paytaxtın küçələrində eskortla hərəkət etməyi yasaqladı. Keçən ay Ermənistan DİN-in xüsusi təyinatlıları S.Şahramanyanın qulluğunda duran xidməti avtomobilini evakuatora yükləyib naməlum istiqamətə aparıblar. Doğrudur, həmin vaxt "dqr"in qaçqın liderinin avtomobilinin müsadirə olunmasının səbəbi açıqlanmamışdı. Hətta bununla bağlı istintaq komitəsi Şahramanyana heç bir yazılı arayış, yaxud məhkəmə qərarı təqdim etmədi. Sadəcə olaraq, onun



nəzərinə çatdırıblar ki, avtomobili hansısa cinayət işi araşdırılması çərçivəsində müayinədən keçirilmək üçün götürülüb.

Nəhayət, Hayastan istintaq komitəsi müsadirə ilə bağlı qaranlıq qalmış məsələyə aydınlıq gətirib. Hökumətin rəsmi qurumu Şahramanyanın nəzərinə çatdırıb ki, onun avtomobili narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət işinin təhqiqatı çərçivəsində müsadirə edilib. Bu məlumatı istintaq komitəsinə istinadla "Sputnik Armenia" yayıb.

Hələ biz bu ilin fevralında Samvel Şahramanyanın mühafizəçisi Aşot Danielyanın Ermənistan hüquq-mühafizə orqanları tərəfindən saxlanıldığı faktını az qala unutmuşduq. O zaman iki gün "kpz"də saxlanılandan sonra sərbəst buraxılan Danielyan narkotik vasitələri saxlamaqda və satmaqda şübhəli şəxs qismində dindirilmişdi.

Göründüyü kimi, Samvelin özünün və ətrafının başı qeylü-qaldadır. Xankəndidə müvəqqəti "xoşbəxt çağlarını" yaşayan, Qarabağın erməni sakinlərindən qəsdən gizlədilmiş hər cür ərzaqla təmin edilən Şahramanyan indi düşdüyü miskin durumdan çıxış yolunu, deyəsən, narkotikaya qurşanmaqda görüb. Əgər belə deyilsə, onda kinoloq onun xidməti maşınından uyuşdurucunun izlərini necə tapıb? Deməli, fakt və sübutlar ona dəlalət edir ki, Qarabağ separatçılarının iradəsi zəif sonuncu lideri düşdüyü bəladan canını qurtarmaq, "dərdini" unutmaq üçün narkotikaya qurşanıb.

***İ.HƏSƏNQALA***
***XQ***

# İraq heyəti Ədliyyə Nazirliyində



**Ədliyyə naziri Fərid Əhmədov ölkəmizdə səfərdə olan İraq Respublikası Ali Məhkəmə Şurasının sədri Faiq Zidanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bu barədə Ədliyyə Nazirliyindən məlumat verilib. Nazir ölkələr arasında həm ikitərəfli, həm də beynəlxalq müstəvidə əməkdaşlığın inkişaf etdirildiyini vurğulayıb. Fərid Əhmədov ölkəmizdə elektron məhkəmə və elektron icra sisteminin tətbiq edilməsi, hakimlərin hazırlığı və ədliyyə sahəsində görülən digər işlər barədə məlumat verib. Nazir qeyd edib ki, iki ölkə arasında hüquqi sahədə əlaqələrin inkişafı üçün geniş imkanlar var. İraq nümayəndə heyətinin rəhbəri Faiq Zidan səmimi qəbula görə öz minnətdarlığını ifadə edib. Bu səfərin ölkələr arasında hüquqi sahədə həyata keçirilən ilk səfər olduğunu vurğulayan qonaq məhkəmə və ədliyyə sahəsində əməkdaşlığın qurulmasında, eləcə də ölkəmizin təcrübəsinin öyrənilməsində qarşılıqlı səfərlərin vacibliyini qeyd edib. Həmçinin görüşdə tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

COP29 hədəfləri

# Ekoloji tarazlığın təbii, sosial və idarəetmə prinsiplərinin vəhdəti



**Hazırda ölkəmiz dünyada ətraf mühitin sağlamlaşdırılması strategiyasını uğurla gerçəkləşdirən, mühüm ekoloji qərarlarla konkret nəticələr əldə edən bir dövlət kimi tanınır və 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılması istiqamətində davamlı addımlar atır.**

Bu göstəricilərin reallaşdırılmasında əsas məqsəd sənayenin inkişafı fonunda yaranan kimyəvi çirklənmənin insan sağlamlığına və ətraf mühitin korlanmasına səbəb olan ciddi risklərin qarşısını almaqdır. İqlim dəyişikliyinə gətirib çıxaran və genişmiqyaslı səmərəli mübarizə tədbirlərinin gerçəkləşdirilməsi zərurəti yaradan ətraf mühitin çirklənməsi təbii ki, beynəlxalq aləmdə əhalinin sağlamlığını ciddi təhlükələrlə üz-üzə qoyur. Buna görə hazırda bütün dünyada, eləcə də ölkəmizdə sözügedən problemin həlli məqsədilə ətraf mühitin qorunması zamanı sosial məsuliyyət və şəffaf idarəetmə diqqət mərkəzində saxlanılmaqla ətraf mühit, sosial və idarəetmə (ESG) prinsiplərinə mühüm önəm verilir.

Yeri gəlmişkən, bu məqamda ESG prinsiplərinin mahiyyətinə qısa nəzər salmağı zəruri hesab edirik. Bunun üçün, ilk növbədə, xatırladaq ki, ətraf mühit, sosial və korporativ idarəetmə prinsiplərinin tətbiqini gerçəkləşdirmək məqsədi daşıyan və beynəlxalq terminologiyada ESG adlandırılan bu platforma, ümumilikdə, biznesin ətraf mühitə, eləcə də cəmiyyətə təsirinin şəffaf və etibarlılığını müəyyənləşdirən meyarlar, önəmli ideyalar məcmusudur. Başqa sözlə, ESG prinsiplərinin tətbiqi müəssisələrdə ətraf mühitin mühafizəsinə, biznesin rəqabət qabiliyyətinin artırılmasına, xarici investisiyaların qoyuluşuna və istehsal olunan məhsulun ixracına əhəmiyyətli təsir göstərir.

Ölkəmizdə ESG prinsiplərinin gerçəkləşdirilməsi məqsədilə dövlət və özəl sektorun səylərini birləşdirmək üçün 2022-ci il sentyabrın 30-da Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının "Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət" işçi qrupunun "Ekoloji, sosial və korporativ idarəetmə (ESG) standartları" üzrə altqrupu yaradılıb. Həmin vaxtdan altqrupa rəhbərlik Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə həvalə edilib.

Ötən müddət ərzində ESG prinsiplərinin gerçəkləşdirilməsi məqsədilə ölkəmizdə ortamüddətli dövr üçün Strateji Baxış sənədi formalaşdırılıb, eyni zamanda, "Ekoloji, sosial və korporativ idarəetmə prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2023 və 2024-cü illər üçün müvafiq yol xəritələri təsdiq edilib. 2023-cü il üçün Yol xəritəsinin icrası çərçivəsində ESG sahəsində ölkədə mövcud vəziyyətin təhlili aparılıb, sorğu həyata keçirilib və beynəlxalq təcrübə öyrənilib. Bununla yanaşı, ESG-nin ayrı-ayrı elementləri ilə əlaqəli olan normativ-hüquqi çərçivələr, mövcud olan və yeni tətbiq edilən norma və qaydalar nəzərdən keçirilib.

Bütün bu məsələlər barədə iyulun 3-də Bakıda keçirilən "Dayanıqlı inkişaf naminə dövlət-özəl tərəfdaşlığı" mövzusunda keçirilən Ətraf Mühit, Sosial və İdarəetmə Sammitində ətraflı danışılıb. İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov sammitdə ESG prinsiplərinin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində fəaliyyətin və tərəqqinin sürətləndirilməsi üçün platforma rolunu oynadığını, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli təsir göstərdiyini vurğulayıb. Nazir müavini, həmçinin qeyd edib ki, Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı üzərinə öhdəlik götürdüyünü, inklüzivlik, səmərəlilik və dayanıqlılığı təşviq etdiyini, hesabatlılıq və şəffaflığı diqqətdə saxladığını xatırladıb, eyni zamanda, respublikamızın Dayanıqlı İnkişaf Məqsədləri üzrə 7 Milli Hesabatı təqdim edən ölkələr sırasında qərarlaşdığını xatırladıb.

İqtisadiyyat nazirinin müavini çıxışında daha sonra qeyd edib ki, Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinə sadiq qalaraq ekoloji, sosial və korporativ idarəetmənin inkişafında dövlət-özəl tərəfdaşlığın həlledici rol oynadığını qəbul edir. Respublikamız sektorlar arasında möhkəm əməkdaşlığı gerçəkləşdirmək üçün 2022-ci ilin dekabrında dövlət-özəl tərəfdaşlıq haqqında qanunu qəbul etməklə hazırda böyük dəyişiklik yolu ilə uğurla irəliləyir. Ölkəmiz bu prinsiplərə uyğun olaraq, şəffaflığı, səmərəliliyi və ədalətliliyi təmin etməklə yanaşı, investisiyaların və iqtisadi artımın stimullaşdırılması hazırlanan aydın stimullar və təminatlar hesabına gerçəkləşdirir. Həmçinin qanunun aliliyini, azad rəqabəti qorumaqla, tərəfdaşlıqda iqtisadi, etik və sosial məsuliyyət kimi prinsipləri diqqətdə saxlamaqla bu sahədə üzərinə düşən öhdəliyi layiqincə yerinə yetirir.

S.Məmmədov qeyd edib ki, ətraf mühit qlobal təchizat zəncirinin ayrılmaz hissəsidir, çünki dünya üzrə ümumi ÜDM-in yarıdan çoxu, xüsusilə tikinti, kənd təsərrüfatı və meşə təsərrüfatı kimi sahələrdə təbiətdən asılıdır: "Qeyd etmək istərdim ki, Azərbaycan dairəvi iqtisadiyyata keçiddən tutmuş "təmiz texnologiyalar"ın tətbiqinə və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsinə qədər müxtəlif təşəbbüsləri dəstəkləyir".

Nazir müavininin sözlərinə görə, Azərbaycanda Ətraf Mühit, Sosial və İdarəetmə çərçivələrinin ümumiləşdirilməsi davamlı və məsuliyyətli biznes təcrübələrinin ölkənin korporativ və maliyyə sistemlərinə inteqrasiyasını nəzərdə tutur. "Biz nəqliyyat, səhiyyə, yaşıl texnologiyalar və təcrübələrin inteqrasiyasına qədər müxtəlif sektorlar üzrə yeni imkanları fəal şəkildə araşdırırıq. Məqsədimiz cəmiyyətimizin üzləşdiyi kritik problemləri həll etmək və vətəndaşlarımızın rifahına mənalı töhfə verməkdir", – deyə nazir müavini bildirib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov isə hazırda Azərbaycanda ESG prinsiplərinin tətbiq səviyyəsinin 3,5 faiz olduğunu, keçən il aparılan sorğuya əsasən, ESG prinsipləri barədə ölkədəki məlumatlılıq səviyyəsinin 7 faiz, tətbiq səviyyəsinin isə 3,5 faiz təşkil etdiyini vurğulayıb.

O.Məmmədov daha sonra qeyd edib ki, ESG prinsiplərini həyata keçirməklə biznesin davamlı inkişafına nail olmaq, risklərə qarşı dayanıqlılığı artırmaq, beynəlxalq maliyyə resurslarına və bazarlara çıxışı genişləndirmək və ümumi biznes idarəçiliyini optimallaşdırmaq mümkündür.

"Bu gün KOBİA bütün maraqlı tərəflər, o cümlədən bizneslər arasında ESG prinsiplərini diqqətdə saxlamağa mühüm önəm verir. ESG bütün müvafiq dövlət orqanlarının, biznes qurumlarının, birliklərin, akademik dairələrin və ictimaiyyətin birgə səylərini tələb edən hərtərəfli məsələdir", – deyə o, vurğulayıb.

## "Azərkosmos" Çinin "Star.vision" şirkəti ilə anlaşdı

**"Azərkosmos" Açıq Səhmdar Cəmiyyətindən ("Azərkosmos" ASC) redaksiyamıza verilən məlumata görə, bu qurum Çinin "Star.vision" texnologiya şirkəti ilə anlaşma memorandumu imzalayıb. İmzalama mərasimi "Star.vision" şirkətinin nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində "Azərkosmos"da reallaşıb.**

Memorandumun əsas məqsədi "Star.vision" tərəfindən hazırlanan süni intellekt həlləri tətbiq olunan peyk və orbit sınaqları üçün zəruri alqoritmlərin birgə hazırlanması və tətbiqi istiqamətlərində strateji əməkdaşlıq etməkdir. Həmçinin süni intellekt və peyk texnologiyası ilə Yerin müşahidəsinin mənzərəsini yenidən formalaşdırmaq məqsədi daşıyan qabaqcıl rəqəmsal təşəbbüslərin birgə icrası və təcrübə mübadiləsi də bura daxildir.



Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib və "Azərkosmos" "Star.vision" şirkətini noyabr ayında Bakıda keçiriləcək COP29 tədbirinə dəvət edilib.

## Zəmilərin 63 faizi biçilib

**Ölkədə taxıl biçininin qızgın çağıdır. Bu günə qədər taxıl sahələrinin 62,8 faizində biçin başa çatıb. Bu barədə Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, mexanizatorlar tərəfindən mövsümün əvvəlindən 635 min 646 hektar sahədə biçin aparılıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 30 min 844 hektar çoxdur. Bütövlükdə isə, ötən müddətdə arpa sahələrinin 86,4 faizində, buğda sahələrinin isə 45,7 faizində biçin tam yekunlaşıb. Hazırda hektarın orta məhsuldarlığı arpa üzrə 29,7 sentner, buğda üzrə isə 31,9 sentner təşkil edir.

Nazirliyin məlumatına görə, biçin aparılmış zəmilərdən bu günə qədər 2 milyon 25 min 70 ton məhsul yığılıb, bunun da 1 milyon 89 min 912 tonu arpa, 935 min 158 tonu isə buğdadır.

Hazırda biçin prosesində 1576 kombayn iştirak edir. Bunun 633-ü "Aqroservis" ASC-nin, 943-ü isə fiziki və hüquqi şəxslərin özəl mülkiyyətində olan kombaynlardır.

## Azərbaycan–Özbəkistan bank əməkdaşlığı

**Azərbaycanın Mərkəzi Bankı ilə Özbəkistan Respublikasının Mərkəzi Bankı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.**



Mərkəzi Bankın məlumatına görə, sənəd hər iki mərkəzi bank arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə və genişləndirilməsinə, həmçinin maliyyə sektorunun inkişafına töhfə verəcək. Eyni zamanda, Anlaşma Memorandumu çərçivəsində qurumlar arasında mühüm sahələr üzrə tərəfdaşlığın dərinləşdirilməsi, təcrübə və məlumat mübadiləsinin aparılması, eləcə də qarşılıqlı səfərlərin təşkilinin həyata keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımovun rəhbərlik etdiyi nümayəndə heyətinin Düşənbəyə işgüzar səfəri çərçivəsində Özbəkistan Respublikasının Mərkəzi Bankının sədri Mamarizo Nurmuratovla görüş keçirilib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

# Avropanın qaz təchizatında ölkəmizin payı artır

**Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından Cənub Qaz Dəhlizi vasitəsilə Avropa bazarlarına axan təbii qaz ölkəmizin enerji sahəsində strateji tərəfdaşı kimi mövqeyinin getdikcə möhkəmlənməsinə səbəb olur. Məlum olduğu kimi, 2 il əvvəl – 2022-ci ilin yayında Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin ölkəmizə rəsmi səfəri çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair imzalanmış Anlaşma Memorandumu ilə bu sahədə əməkdaşlıq yeni mərhələyə qədəm qoyub.**




Artıq Azərbaycan strateji tərəfdaşı olduğu Avropa İttifaqı ilə bir çox sahələrdə fəal dialoq aparır. Neft, qaz və bərpaolunan enerji mənbələri, hidrogen, enerji səmərəliliyi və digər sahələr isə tərəflər üçün getdikcə daha çox aktuallıq kəsb edir. Bu səbəbdəndir ki, Prezident İlham Əliyev Anlaşma Memorandumunu gələcək üçün yol xəritəsi kimi dəyərləndirib. Təsadüfi deyil ki, dövlətimizin başçısı ölkəmizin "köhnə qitə"nin enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verdiyini diqqətə çatdıraraq deyib: "Avropa Azərbaycanın bu sahədəki fəaliyyətini nəinki dəstəkləyir, hətta bir çox hallarda bizə müraciətlər də olmuşdur və bu müraciətlərə biz müsbət cavab vermişdik. Avropa Komissiyası qeyd etdiyimiz kimi, Azərbaycanı etibarlı tərəfdaş adlandırıb. Avropa İttifaqının Enerji Komissiyası isə Azərbaycanı Panavropa qaz təchizatçısı adlandırmışdır və onlar tam haqlıdır".

Bu arada, Avropa Komissiyası 2023-cü ilin son rübü ilə bağlı dərc etdiyi hesabatını açıqlayıb. Sənədə əsasən, ötən il Azərbaycandan Avropa İttifaqına (Aİ) 11 milyard kubmetrdən çox təbii qaz ixrac edilib. Bununla da, Azərbaycanın Aİ-nin təbii qaz idxalındakı payı 2021-ci ildəki 3 faizdən (8 milyard kubmetr) 7 faizə yüksəlib. Qeyd edək ki, 2023-cü ildə Aİ-nin təbii qaz idxalı 290 milyard kubmetr, istehlakı isə 330 milyard kubmetr təşkil edib ki, bu da əvvəlki illə müqayisədə müvafiq olaraq 13,4 faiz və 7,3 faiz azalıb. Bununla yanaşı, Avropa İttifaqı 2023-cü ildə əsas qaz təchizatçısı olan Rusiyadan idxalı 3,5 dəfə azaldaraq 150 milyard kubmetrdən 43 milyard kubmetrə endirib. Buna isə Rusiya–Ukrayna müharibəsi ilə əlaqədar tətbiq edilən sanksiyalar və mövsümi temperaturun normadan çox olması səbəb olub.

Bununla yanaşı, ötən il Avropa İttifaqının qaz hasilatı əvvəlki illə müqayisədə 19,1 faiz azalaraq 38 milyard kubmetrə enib. Bu da ümumi istehlakda payının 11 faizi deməkdir. Müqayisə üçün bildirək ki, il ərzində Avropa İttifaqında ən böyük təbii qaz istehsalçıları Niderland (12 milyard kubmetr) və Ruminiya (9,3 milyard kubmetr) olub. Anbarların təbii qaz ehtiyatlarına gəldikdə isə, bunu Avropa üçün qənaətbəxş hesab etmək olar. Belə ki, ötən il Aİ-də anbarların doluluğu əvvəlki illə müqayisədə 18 faiz bəndi artaraq 79 faizə çatıb. Xatırladaq ki, 2021-ci ildə bu göstərici 49 faiz təşkil edib.

Yeri gəlmişkən, Azərbaycanın Avropada ən böyük ticarət və enerji tərəfdaşı olan İtaliya "Şahdəniz" qazının əsas alıcısıdır. Təkcə onu qeyd etmək kifayətdir ki, indiyə kimi Avropaya ixrac edilmiş 37,9 milyard kubmetr Azərbaycan qazının 30 milyard kubmetrdən çoxu məhz bu ölkənin payına düşür. Bu il isə Azərbaycandan İtaliyaya 9,6 milyard kubmetr qaz tədarükü proqnozlaşdırılır.

Elə Azərbaycanın energetika naziri Pərviz Şahbazovun İtaliyaya səfəri çərçivəsində iyulun 2-də Milan şəhərində bu ölkənin ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratini ilə görüşündə də enerji sahəsində əməkdaşlığın mövcud vəziyyəti və perspektiv imkanlar barədə ətraflı fikir mübadiləsi aparılıb. Görüşdə, həmçinin enerji sahəsində və Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), İtaliyanın G7-yə sədrliyi çərçivəsində əməkdaşlığın geniş spektri müzakirə edilib. Azərbaycanla İtaliya arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasından və əməkdaşlıq əlaqələrinin inkişafından məmnunluq ifadə edilib.

Görüş zamanı, Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya ilə münasibətlərin hərtərəfli inkişafına önəm verdiyi vurğulanıb. İtaliyanın Azərbaycanın əsas ticarət tərəfdaşı olması, bu ölkənin "mavi yanacaq"la təchizatında Azərbaycanın ilk üçlükdə qərarlaşması müsbət məqamlar kimi qeyd edilib. Bununla yanaşı, Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) 2026-cı ildən ötürücülük gücünün 1,2 milyard kubmetr genişlənməsinin isə enerji təhlükəsizliyi və dekarbonizasiya məsələlərində əməkdaşlığımızı gücləndirəcəyi diqqətə çatdırılıb.

Azərbaycan qazının Avropaya uzanan yolu isə 2018-ci ilin iyun ayında Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) birinci hissəsinin istifadəyə verilməsi ilə başlanıb. Düz 6 ildir ki, "Şahdəniz-2" layihəsi çərçivəsində hasil edilən "mavi yanacaq" bu kəmər vasitəsilə Türkiyənin qərb sərhədinə, oradan isə Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Qaz Boru Kəməri ilə sabit və davamlı şəkildə Avropa bazarına çatdırılır.

Hazırda isə Azərbaycan Türkiyəyə ən çox təbii qaz ixrac edən ölkələr sırasında birinci yerdə qərarlaşıb. Türkiyə Enerji Bazarlarının Tənzimlənməsi İdarəsinin dərc etdiyi məlumatlarda bildirilir ki, 2024-cü ilin aprel ayında Azərbaycan qardaş ölkəyə təbii qaz ixracını ötən ilin eyni dövrü ilə müqayisədə 12,02 faiz artırıb. Məlumata görə, ixrac 2023-cü ilin aprel ayındakı 893,36 milyon kubmetrlə müqayisədə 1,001 milyard kubmetrə çatıb.

Yeri gəlmişkən, TANAP Azərbaycan–Türkiyə iqtisadi əməkdaşlığının tarixində yeni səhifə açıb. Cənub Qaz Dəhlizinin ən uzun hissəsi olan bu boru kəməri Azərbaycanın Türkiyə, Gürcüstan və bir sıra Avropa ölkələri ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə, dünyada qaz ixracı marşrutlarının şaxələndirilməsinə, qaz bazarlarına daha çox "maye yanacağ"ın çıxarılmasına və üçüncü minillikdə dünyada enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdədir. Sözügedən layihə, həmçinin Trans-Xəzər qaz kəmərinin gerçəkləşməsi üçün də yeni imkanlar yaradır. Belə ki, gələcəkdə Qazaxıstan və Türkmənistanın bu layihəyə qoşulması ilə Azərbaycan, həm də qaz nəqlində transit ölkəyə çevrilmək imkanı əldə edəcək.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 319**

**Bakı şəhəri, 26 iyun 2024-cü il**

***"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının, hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları"nın təsdiq edilməsi, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının tənzimlənməsi haqqında" 2013-cü il 26 sentyabr tarixli 269-12 nömrəli Qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 avqust tarixli 322-11 nömrəli qərarının ləğv edilməsi haqqında" 2018-ci il 13 aprel tarixli 149-11 nömrəli Qərarında dəyişikliklər və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları"nın təsdiq edilməsi, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 26 sentyabr tarixli 269-12 nömrəli qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 avqust tarixli 322-11 nömrəli qərarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 149-11 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 25 iyun tarixli 279 nömrəli Qərarının ləğv edilməsi barədə" 2019-cu il 25 iyul tarixli 324 nömrəli və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 24 iyun tarixli 145-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 407 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 407 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1561 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin VI hissəsi yeni redaksiyada verilsin (əlavə olunur).

**2.** Nəzərə alınsın ki, bu Qərarın 1-ci hissəsi ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi cari ildə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin saxlanılması üçün ayrılan büdcə vəsaiti hesabına təmin ediləcəkdir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 320**

**Bakı şəhəri, 27 iyun 2024-cü il**

**"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, ölkədə aparılan struktur islahatlarının nəticəsində yaradılan yeni təşkilatların və xidmətlərin fəaliyyətə başlaması, bəzilərinin ləğv edilməsi və ya birləşdirilməsi ilə bağlı onların maliyyə təminatının həyata keçirilməsi, dövlət maliyyə inzibatçılığının və hesabatlılığın gücləndirilməsi, şəffaflığın artırılması, həmçinin büdcə vəsaitlərindən təyinatı üzrə istifadənin tam təmin edilməsi üçün vahid büdcə təsnifatının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359) aşağıdakı dəyişikliklər edilsin:

**1.** "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə" üzrə:

1.1. 1.2.4-cü paraqraf ləğv edilsin;

1.2. "1.2.9. "Digər beynəlxalq fəaliyyət" paraqrafında "1.2.4" rəqəmləri "1.2.3" rəqəmləri ilə əvəz edilsin;

1.3. "4.0.0. "Təhsil" bölməsinə "işlər" sözündən sonra "və tədbirlərin keçirilməsi" sözləri əlavə edilsin;

1.4. "4.1.0. "Məktəbəqədər təhsil", "4.2.0 "Ümumi təhsil" köməkçi bölmələrində və "4.2.1. "İbtidai təhsil", "4.2.2. "Ümumi orta təhsil", "4.2.3. "Tam orta təhsil", "4.2.4. "İnternat tipli və xüsusi ümumtəhsil məktəbləri" paraqraflarında "ilə" sözü "və digər tədbirlərlə" sözləri ilə əvəz edilsin;

1.5. "4.3.0. "Peşə təhsili" köməkçi bölməsi aşağıdakı redaksiyada verilsin:

"4.3.0. "Peşə təhsili" köməkçi bölməsinə əmək bazarının tələbatına uyğun olaraq, peşə təhsili müəssisələrində dövlət sifarişi ilə kadr hazırlığı, ümumi orta təhsil və tam orta təhsil bazasında müxtəlif peşələr üzrə ixtisaslı işçi kadrların hazırlanmasını təmin edən təhsil müəssisələrinin saxlanılması və onlara yardım göstərilməsi, tədbirlərin keçirilməsi ilə bağlı xərclər daxildir.";

1.6. "4.4.0. "Orta ixtisas təhsili", "4.5.0. "Ali təhsil" və "4.6.0. "Əlavə təhsil" köməkçi bölmələrinə "göstərilməsi" sözündən sonra ", tədbirlərin keçirilməsi" sözləri əlavə edilsin;

1.7. "4.9.3. "Təhsil sahəsinə aid edilən digər müəssisə və tədbirlər" paraqrafına "xərcləri" sözündən sonra ", habelə dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı ilə bağlı xərclər" sözləri əlavə edilsin;

1.8. "11.4.3. "Dövlət əsaslı vəsait qoyuluşu" paraqrafının ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu paraqrafa həmçinin tikinti aparılacaq sahələrdə mövcud obyektlərin söküntüsü, yeni tikilmiş, bərpa olunmuş, əsaslı təmir edilmiş obyektlərin mebel, inventar və avadanlıqla təchiz olunması, həmin obyektlərin ərazilərinin abadlaşdırılması, dövlət ehtiyacları üçün tikinti altına düşən torpaq və digər obyektlərin özgəninkiləşdirilməsi, texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması, müəllif nəzarəti, texniki nəzarət və məsləhət xidmətləri, maddi-texniki bazanın təkmilləşdirilməsi, proqram təminatı ilə bağlı və kredit, qrant və digər vəsaitlər hesabına həyata keçirilən layihələrdə dövlətin iştirak payı ilə əlaqədar və bu qəbildən olan digər xərclər daxildir.";

1.9. "12.3.0. "Valyuta konvertasiyası" köməkçi bölməsi aşağıdakı redaksiyada verilsin:

"12.3.0. "Valyuta konvertasiyası" köməkçi bölməsinə valyutalararası mübadilənin həyata keçirilməsi, habelə ödəniş sistemlərindən istifadəyə görə xidmət haqlarının ödənilməsi ilə bağlı tələb olunan xərclər daxildir.".

**2.** "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə" üzrə:

2.1. "221100. "Dəftərxana və təsərrüfat xərcləri" paraqrafına "kalkulyatorların," sözündən sonra "möhür və ştampların," sözləri əlavə edilsin;

2.2. "221400. "Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması" paraqrafına "vasitələrin," sözündən sonra "sterilizasiya avadanlıqları üçün dezinfeksiyaedici məhlulların," sözləri əlavə edilsin;

2.3. "222290. "Digər kommunal xidmətlərin haqqının ödənilməsi" maddəsində "kanalizasiya xətləri olmayan yerlərdə çirkab suların daşınması," sözləri "su və kanalizasiya xətləri olmayan yerlərdə içməli suyun alınması və çirkab suların daşınması, yağış novlarının təmizlənməsi," sözləri ilə əvəz edilsin;

2.4. "222920. "İstehlakyönlü müxtəlif xidmətlər" maddəsinə "avadanlıqların doldurulması," sözlərindən sonra "təbii güllərə və əkmələrə qulluq edilməsi," sözləri əlavə edilsin;

2.5. "222930. "Abadlaşdırma xidmətləri haqqının ödənilməsi" maddəsinə "yazılması," sözündən sonra "ağacların budanması," sözləri əlavə edilsin;

2.6. "263000. "Dövlət sifarişi, dövlət öhdəlikləri və bu qəbildən olan digər öhdəliklərin ödənilməsi" köməkçi bölməsinə "sığortalanması" sözündən sonra "və səhiyyə sahəsində dövlət proqramlarının və tədbirlərin icrası" sözləri əlavə edilsin;

2.7. "263200. "İcbari Tibbi Sığorta Fonduna ayrılan vəsait" paraqrafına "sığortalanması" sözündən sonra "və səhiyyə sahəsində dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsi" sözləri əlavə edilsin.

**3.** Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı" yeni redaksiyada verilsin (əlavə olunur).

**4.** Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin proqram təsnifatı" yeni redaksiyada verilsin (əlavə olunur).

**5.** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq olunur.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 321**

**Bakı şəhəri, 28 iyun 2024-cü il**

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı"nın və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 may tarixli 131 nömrəli Qərarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında" 2001-ci il 19 iyul tarixli 541 nömrəli, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 17 may tarixli 256-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2016-cı il 26 may tarixli 921 nömrəli, "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli 788-VQD nömrəli Qanununun tətbiqi və "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 312-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 noyabr tarixli 1103 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2017-ci il 13 noyabr tarixli 1672 nömrəli, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1057-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 541 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2018-ci il 22 may tarixli 77 nömrəli fərmanlarında və "Azərbaycan Respublikasında ödəniş sistemlərinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2005-ci il 22 noyabr tarixli 1114 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2403 nömrəli Fərmanının 6.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı"nın və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 may tarixli 131 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 510 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 322**

**Bakı şəhəri, 28 iyun 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 301 (Cild I) ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə ləğv edilsin.

**2.** 3-cü hissəyə "6 zonaya," sözlərindən sonra "Abşeron rayonu 3 zonaya," sözləri əlavə edilsin və həmin hissədə "Əli Bayramlı" sözləri "Şirvan" sözü ilə əvəz edilsin.

**3.** 5-ci hissədə "altında yerləşən" sözləri "yerləşdiyi" sözü ilə əvəz edilsin.

**4.** 6-cı hissədə "Sərbəst torpaq" sözləri "Torpaq" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 323**

**Bakı şəhəri, 29 iyun 2024-cü il**

**"Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonasının və ərazisinin xüsusi rejiminin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli 15 nömrəli Sərəncamının 2.1-ci və 2.2-ci bəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonası" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisinin xüsusi rejimi" təsdiq edilsin (2 nömrəli əlavə).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 324**

**Bakı şəhəri, 1 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 may tarixli 165 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydaları"nda və 2023-cü il 25 may tarixli 166 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məhkəmə eksperti şəhadətnaməsinin verilməsi qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1062-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 622 nömrəli, "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 15 yanvar tarixli 252 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 yanvar tarixli 2452 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 may tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 732 (Cild I) ilə təsdiq edilmiş "Məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydaları"nın 1.5-ci bəndinə "Səhiyyə Nazirliyinin" sözlərindən sonra ", Azərbaycan Respublikası Müdafiə Nazirliyinin" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 may tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 733 (Cild I) ilə təsdiq edilmiş "Məhkəmə eksperti şəhadətnaməsinin verilməsi qaydası"nın 1.2-ci bəndinə "Səhiyyə Nazirliyi" sözlərindən sonra ", Azərbaycan Respublikasının Müdafiə Nazirliyi" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 325**

**Bakı şəhəri, 1 iyul 2024-cü il**

**"Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara və taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığın qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması və qiymətləndirilmənin aparılmasına görə haqqın məbləği"nin təsdiq edilməsi haqqında**

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 2.1.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə dair xüsusi hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Taksi minik avtomobillərinin sürücülərinin etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə dair hazırlıqlarının, habelə taksi minik avtomobillərinin sürücülərinin etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıqlarının qiymətləndirilməsinin aparılmasına görə haqqın məbləği 35 (otuz beş) manat təsdiq edilsin.

**4.** Bu Qərar "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"ı bitirmək haqqında müvafiq şəhadətnamələrə malik şəxslərə şəhadətnamənin etibarlılıq müddətinin sonunadək və 2024-cü il 1 iyul tarixinədək "Taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq" keçmiş şəxslərə şamil edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

Günün söhbəti

# Cəmiyyət təbiətin insan təbəqəsidir

## Elm onlar arasında əzəli tarazlığı pozmamalıdır

**Ölkəmizdə son zamanlar insan kapitalının inkişafı, elmi tədqiqatların kommersiyalaşdırılması və bilik transferinin dəstəklənməsi istiqamətində mühüm addımlar atılır. Burada əsas məqsədlərdən biri hərtərəfli hazırlığa malik yüksək ixtisaslı kadrlara olan tələbatın ödənilməsidirsə, digəri Azərbaycan alimlərinin apardıqları yüksək səviyyəli fundamental tədqiqatların nəticələrini tətbiq etməklə yerli istehsalı inkişaf etdirmək, ən azı, strateji məhsulların idxal asılılığını minimumlaşdırmaqdır. Bu sahədə dəqiq və təbiət elmlər sahəsində ixtisaslaşmış elmi tədqiqat institutları vardır ki, orada çalışan alimlərimizin əldə etdiyi mühüm nəticələr istehsalata uğurla tətbiq olunur. Elə 2024-cü il üzrə texnika sahəsində Dövlət Mükafatına layiq görülən kompleks elmi-texniki iş məhz Azərbaycan alimlərinin əldə etdiyi mühüm elmi-texniki nailiyyətlərin istehsalata tətbiqini özündə ehtiva edir. Həmin kompleks elmi işin rəhbəri, Aşqarlar Kimyası İnstitutunun baş direktoru, akademik Vaqif Fərzəliyevlə müsahibədə bu və digər suallara cavab tapmağa çalışdıq.**

**Qısa arayış:**

Məlumat üçün bildirək ki, akademik Vaqif Fərzəliyevin elmi fəaliyyətinin əsas istiqamətini sürtkü yağları, yanacaq və yağlayıcı-soyuducu mayelərə yüksək təsirli aşqarların və onların əsasında yüksək keyfiyyətli yağ, yanacaq və yağlayıcı-soyuducu maye kompozisiyalarının yaradılmasının elmi əsaslarının işlənib hazırlanması təşkil edir. O, yeni aşqarların sintezi, onların funksional təsir mexanizminin və həmçinin tərkib və quruluşlarının effektivliyə təsirinin öyrənilməsi sahəsində sistematik fundamental tədqiqatlar aparır. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə yaradılmış bir sıra aşqarlar və sürtkü yağları, o cümlədən xüsusi təyinatlı yağlar sənayedə tətbiq edilmişdir.



Akademik Vaqif Fərzəliyevin bu istiqamətdə apardığı çoxşaxəli elmi tədqiqat işlərinin nəticələri 1000-ə yaxın elmi əsərdə, o cümlədən 150-dan çox SSRİ müəlliflik şəhadətnaməsi və Azərbaycan patentində, 5 monoqrafiyada öz əksini tapmışdır. "Google Scholar Citations" və “ResearchGate” qlobal informasiya şəbəkələrinin məlumatlarına görə, onun tədqiqat sahəsi üzrə 250 elmi əsəri müxtəlif beynəlxalq elektron sistemlərinə daxil olmuş və onlara dünya alimləri tərəfindən 2500-ə yaxın istinad edilmişdir. H-indeks 31-ə bərabərdir. Onun rəhbərliyi ilə 6 elmlər doktoru və 24 fəlsəfə doktoru yetişmişdir.

***– Vaqif müəllim, Dövlət Mükafatına layiq görülən kompleks elmi-texniki iş son illər ərzində ölkəmizdə ən uğurlu tətbiqi elmi ixtira adlandırılır. Sizin buna münasibətinizi bilmək istəyərdik.***

– Bizim əməyimizi yüksək dəyərləndirənlərin hər birinə dərin təşəkkürümüzü bildirirəm. Eyni zamanda, təvazökarlıqdan uzaq olsa da, etiraf edim ki, həqiqətən Aşqarlar Kimyası İnstitutunun ən uğurlu tətbiqi elmi-texniki işlərindən biri təbii ki, hərbi məqsədli texnika üçün motor yağının yeni analoqunun yaradılması ilə bağlıdır. Bu xüsusi təyinatlı yağlar Azərbaycan Respublikası Müdafiə Nazirliyinin sərəncamında olan bütün markalı tankların mühərriklərində praktiki sınaqlardan uğurla keçmiş və sınaq komissiyası bu yağın tank mühərriklərində istifadəsini məqsədəuyğun hesab etmişdir.



Yeri gəlmişkən qeyd edim ki, Azərbaycan tarixən neft hasilatı, onun sənaye miqyasında emalı, sürtkü yağları istehsalının vətəni olduğu üçün keçmiş Ittifaqda aşqarların işlənib hazırlanması və istehsalı da ilk dəfə olaraq respublikamızda həyata keçirilmişdir. Məhz institutun əsasını qoyan akademik Əli Quliyev və digər istedadlı alimlərimiz SSRİ Dövlət mükafatına, 1970-ci ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdürlər.

Aşqarlar Kimyası İnstitutunun bu dəfə mühüm elmi-texniki nailiyyətinin dövlətin ən ali mükafatı ilə təltif olunması Azərbaycanda vaxtı ilə yaradılan elmi ənənənin davam etdirilməsinin məntiqi nəticəsidir. Bu, həm də dövlət başçımızın Azərbaycan elminə və elm adamlarına verdiyi ən böyük dəyərin əyani nümunəsidir.

***– İnstitutun başqa hansı elmi nəticələrinin istehsalata uğurla tətbiq olunduğunu və ya tətbiqə tövsiyə ediliyini qeyd edə bilərsiniz?***

– Digər mühüm tətbiqi işimiz Qazaxıstan və Türkmənistanın yüksək parafinli neftlərinin donma temperaturu və dinamik özlülüyünü aşağı salmaqla onların Bakı–Tbilisi-Ceyhan neft kəmərləri ilə uzaq məsafələrə nəql edilməsini təmin edən aşqar – “Depresator AKİ” yaradılması və tətbiqi ilə bağlıdır. Hazırda o “Aşqar” Elmi İstehsalat Birliyində min tonlarla istehsal olunur.

Eyni zamanda, respublikada müxtəlif növ daxili yanma mühərriklərində istifadə olunmuş və ekoloji gərginlik yaradan işlənmiş yağların regenerasiya texnologiyası yaradılmış və bu texnologiya üzrə regenerasiya olunmuş yağ və müvafiq aşqarlar əsasında dizel mühərrikləri üçün müxtəlif təyinatlı, o cümlədən xüsusi təyinatlı sürtkü kompozisiyaları yaradılmışdır. İşlənmiş yağların regenerasiya texnologiyası və regenerasiya olunmuş yağ əsasında yaradılmış xüsusi təyinatlı sürtkü kompozisiyası strateji əhəmiyyət kəsb etdiyinə görə Azərbaycan Respublikasının “məxfi” qriflə patentləri ilə müdafiə olunmuşdur. Konkret olaraq modul elektrik stansiyalarında istifadə olunmuş ekoloji gərginlik yaradan “Musella-40” motor yağının regenerasiya texnologiyası yaradılmış və bu texnologiyanın tətbiqi üzrə müəyyən işlər aparılır.

Azərbaycan Dövlət Neft Şirkətinin Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyində istifadə edilən və xaricdən gətirilən M-14ГБ motor yağının yeni analoqu institut tərəfindən yaradılmış və onun da istehsalı təşkil edilmişdir.

Yağlayıcı-soyuducu mayeləri və neft məhsullarını bioloji zədələnmədən qoruyan Azin-1, Azin-2, Azin-3 və Azin-4 antimikrob aşqarların sənaye istehsalı təşkil edilmişdir.

Neft-mədən avadanlıqlarını korroziyadan və mühərrikin soyuducu sistemlərini kavitasiya nəticəsində dağılmadan qorumaq üçün korroziya inhibitorları yaradılmış, istehsal texnologiyası işlənilmiş və təcrübi-sənaye istehsalı təşkil edilmişdir.

***– Bütün bu yüksək elmi nəticələrinizi konkret olaraq elmlə istehsalatın vəhdətinin yaradılmasına xidmət edən addımlar kimi də dəyərləndirmək olarmı?***

– Bilirsiniz ki, hər bir dövlətin iqtisadiyyatı üç nəhəng dayaq üzərində qurulur – elm, təhsil və istehsalat prosesi. İqtisadiyyatın inkişaf sürəti bu dayaqların vəhdətindən – inteqrasiya dərəcəsindən asılıdır.

Keçmiş SSRİ dövründə istehsalat müəssisələrinin hamısı dövlətə məxsus olduğundan və əsasən, xaricdən texnologiyalar gətirilmədiyi üçün elm-istehsalat əlaqələri həddindən artıq möhkəm idi.

SSRİ dağıldıqdan sonra Azərbaycan keçmiş sovet respublikaları kimi sosialist iqtisadiyyatından bazar iqtisadiyyatına keçdi və istehsal müəssisələrinin, demək olar ki, əsas hissəsi özəl sektora verildi və bununla əlaqədar elm-istehsalat əlaqələri dəyişdi. Özəl müəssisələrin əsas hissəsi asan yolla gedərək xaricdən hazır texnologiyaları gətirib tətbiq etdi və ölkə elminə investisiya yatırımı demək olar ki, yox dərəcəsinə endi.

İnkişaf etmiş ölkələrdə elm-istehsalat vəhdəti həddindən artıq möhkəmdir və özəl müəssisələrin çoxu elmi mərkəzlərə investisiya yatırımını nəinki tətbiqi işlərə, hətta fundamental tədqiqatlara da edirlər, çünki hər bir yeni texnologiya fundemental tədqiqatların nəticəsində əldə olunur.

Azərbaycan reallığında qeyd olunanlara çox az hallarda rast gəlmək olur. Lakin şükür ki, bu istiqamətdə fəaliyyət göstərən şirkətlər də var. AKİ olaraq bu il qeyd olunan istiqamətdə sıx fəaliyyət göstərən iki özəl şirkəti böyük məmuniyyətlə qeyd etmək istəyirik. Onlardan biri kimi “Elroys” MMC ilə birgə fəaliyyətimizin mühüm nəticəsi yuxarıda adını çəkdiyim “Depressator AKİ” aşqarının yaradılması və tətbiqi ilə bağlıdır.

Başqa bir şirkət “İselTexno” MMC-nin isə AKİ ilə elmlə istehsalatın vəhdətinin inkişafı istiqamətini əhatə edən ekoloji problemlərin həllinə yönələn ən son uğurlu elmi iş Balaxanı ərazisində min tonlarla yığılmış və ekoloji problem yaradan “turş qudron”un emal prosesinin yaradılması və emal məhsulunun istifadəsindən ibarətdir.

***– Vaqif müəllim, bu ilin 11–24 noyabr tarixlərində Bakıda mötəbər COP29 təşkil olunacaq. Həmçinin Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il ölkədə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Bunlarla bağlı ölkədə ekoloji problemlərin həlli və ətraf mühitin sağlamlaşdırılması istiqamətində geniş tədbirlər həyata keçirilir. Elmi-tədqiqat müəssisəsi olaraq Aşqarlar Kimyası İnstitutu bu prosesdə necə iştirak edir?***

– Məlum olduğu kimi, neft emalı məhsullarının əsas hissəsini motor və soba yanacaqları təşkil edir. Bu yanacaqların mühərriklərdə, su-elektrik stansiyalarında, eləcə də sənaye müəssisələrində yandırılması zamanı atmosferə karbon qazı, dəm qazı, yüngül karbohidrogenlər, kükürd və azot oksidləri kimi zəhərli qazlar atılır.

Hər hansı mühərrikin işi zamanı (xüsusilə dizel yanacağı) atmosferə bu qazlarla yanaşı his hissəcikləri və nəzərə çarpacaq miqdarda aromatik birləşmələrdən alınan kanserogen birləşmələr (benzopiren və sair) də buraxılır. Hazırda dünyanın əksər ölkələrində dizel mühərriklərinə bir sıra çirkləndiricilər üçün emissiya meyarı təyin edilmişdir.

Böyük Britaniyanın Lester Universitetinin nəzdindəki Ağ Ciyərin Sağlamlığı İnstitutu və digər ölkələrin tibb mərkəzlərinin araşdırmalarının nəticələrinə görə, nəqliyyat mühərriklərindən çıxan his hissəcikləri insanların, xüsusilə balaca uşaqların ağ ciyərində yığılır, ciddi fəsadlara yol açır.

Bu qlobal problemə qarşı AKİ-də atmosferin dizel mühərrikinin tullantı qazlarının əsas toksik komponenti olan tüstü ilə çirklənməsini azaltmaq üçün dizel yanacaqlarına tüstüyə qarşı effektiv aşqar yaradılmışdır. Belə ki, dizel mühərriklərinin işləməsi zamanı çıxan qazlarda tüstünün və kanserogen maddələrin miqdarını kəskin azaldan, təkcə ölkəmizdə deyil, keçmiş SSRİ-də dizel yanacağı üçün ilk tüstü əleyhinə aşqar olan ИХП-706 aşqarı məhz, AKİ-nin “Yanacaq kompozisiyaları” laboratoriyasında alınmış və tətbiq olunmuşdur (ИХП-AKİ-nin rusca adıdır – Институт химии присадок–müəllif).

Neftlə çirklənmiş torpaqların və su hövzələrinin mikrobioloji vasitələrlə təmizlənməsi də AKİ-nin ekoloji problemlərin aradan qaldırılmasına yönəlmiş əsas fundamental və tətbiqi xarakterli elmi işlərindən biridir. Bu nöqteyi-nəzərdən İnstitutun aparıcı alimləri Abşeron yarımadasının Suraxanı, Balaxanı, Binəqədi və Bibi-Heybət yataqları ətrafı müxtəlif karbohidrogen tərkibli torpaqların təmizlənməsi üçün torpağı yaxşılaşdıran əlavələr kompleksi ilə seçilmiş mikroorqanizm (bakteriya və maya) assosiasiyasını təmsil edən bioloji preparatların alınması üçün müasir texnologiya yaratmışlar.

Neftlə çirklənmiş torpaqların “bioremediasiyası” adalanan bu texnologiya ilə adları çəkilən yataqların ərazisinə düşən torpaqlardan ayrılmış aktiv karbohidrogenoksidləşdirici mikroorqanizmlərin istifadəsi ilə bakteriya və mayaların effektiv assosiasiyası tərtib edilmiş, bunun əsasında neftlə çirklənmiş torpaqların rekultivasiyası üçün 4 müxtəlif biopreparat və tədqiq olunan bu yataqlar üçün tövsiyə olunan 1 ümumi biopreparat (“Universal”) hazırlanmış və sınaqdan keçirilmişdir.

AKİ-də ekoloji problemlərin həllinə yönələn ən son uğurlu tətbiqyönlü elmi işlərindən biri də Balaxanı ərazisində min tonlarla yığılmış və ekoloji problem yaradan “turş qudron”un emal prosesinin yaradılması və emal məhsulunun istifadəsi ilə əlaqəlidir.

***–Paytaxtımızda torpaqların çirklənməsinin azaldılması, ətraf mühütün sağlamlaşdırılması üçün hansı işlər görülür?***

– Bakı Neft Emalı Zavodlarının uzun illər ərzində fəaliyyəti nəticəsində əmələ gəlmiş turş qudron min tonlarla Abşeronun Balaxanı qəsəbəsi ərazisinə tullanaraq həddindən artıq ekoloji problemlər yaratmışdır. Bu ekoloji gərginliyin azaldılması, ətraf mühütün sağlamlaşdırılmasına AKİ alimləri vaxtı ilə ərazidə fəlakət yaşanmasında əsas pay sahibi olan turş qudronun emal məhsulundan istifadə edərək mazut əsasında alınan qalıq yanacaqların özlülük və aşağı temperatur xassələrini yaxşılaşdıran əlavə yaradıblar.

Turş qudronun emalı posesini həyata keçirərək və emal məhsulunu istifadə edərək həm mühüm texniki, həm də mühüm ekoloji problem həll olunmuş olur. Turş qudronun emal məhsulu artıq tətbiq edilir. Bu da həm ölkənin iqtisadi inkişafı, həm də ekoloji problemlərin həllini əhatə edir. Bu müştərək iş də Azərbaycan patenti ilə müdafiə olunub.

AKİ neft sənayesi üzrə ixtisaslaşmış elmi tədqiqat institutu olsa da fəaliyyətinin mühüm aspektləri bu sənayenin yaratdığı ekoloji problemlərin aradan qaldırılmasının elmi əsaslarının yaradılmasına və onun uğurla tətbiqinə yönəlməkdədir. Təbii ki, bundan sonra da bu məsələlərə daha çox diqqət yönələcək və çoxşaxəli fəaliyyət genişlənəcək. Çünki ölkəmizdə baş tutcaq COP29 elmi-tədqiqat institutları, eləcə də kimyaçı alimlərimiz qarşısında yeni vəzifələr qoyacaq. Bu vəzifələri yerinə yetirmək respublikamıza iqtisadi inkişaf ilə yanaşı, başqa ölkələrə nümunə göstəriləcək ekoloji təhlükəsizlik gətirəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Növbədənkənar parlament seçkiləri qarşısında

# Dünya daha bir azad, şəffaf, demokratik seçkilərin şahidi olacaq

## Müsahibimiz 66 saylı Saatlı Dairə Seçki Komissiyasının sədri Arif Əliyevdir

***– Arif müəllim, artıq növbədənkənar parlament seçkilərinə start verilib. DSK sədri kimi sizin də, necə deyərlər, işiniz başınızdan aşır. Deputat olmaq istəyənlər artıq öz namizədliklərini irəli sürməyə başlayıblar. Namizədlərin irəli sürülmə prosesi necə aparılır?***

– Bəli, Prezident İlham Əliyev “Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında” sərəncam imzaladığı gündən seçkilərin keçirilməsinə start verilib. Həmin gündən etibarən deputat mandatı qazanmaq istəyənlər bizə müraciət etməyə başlayıblar. Biz müraciət edən hər vətəndaşın namizədliyini irəli sürməsi üçün şərait yaratmağa çalışırıq. Təbii ki, qanunvericiliyini tələblərinə uyğun şəkildə.



Deputatlığa namizədliyini irəli sürənlərə məlumat üçün bildiririk ki, birmandatlı seçki dairəsi üzrə namizədləri siyasi partiyalar, siyasi partiyaların blokları, həmin seçki dairəsində daimi yaşayan, seçki hüququ olan Azərbaycan Respublikasının vətəndaşları Seçki Məcəlləsinin 53 və 54-cü maddələrinə uyğun olaraq irəli sürə bilərlər. Namizəd öz təşəbbüsü ilə və ya aktiv seçki hüququ olan şəxslər tərəfindən də irəli sürülə bilər. O şərtlə ki, ərazisində namizədin dəstəklənməsi üçün zəruri olan imzaların yığıldığı və namizədin qeydə alınmasının nəzərdə tutulduğu müvafiq seçki komissiyasına bu barədə bildiriş göndərilsin. Bildirişlə birlikdə namizədin seçkili dövlət orqanında seçkili vəzifəyə seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyinə dair yazılı öhdəliyi olan ərizə də göndərilir. Seçicilərin irəli sürdükləri namizəd yalnız bir birmandatlı seçki dairəsində namizədliyinin irəli sürülməsinə razılıq verə bilər.



***– Seçici imzalarının toplanması üçün tələblər hansılardır?***

– Namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin, azı, 450 imzası toplanmalıdır. Bir seçici birdən artıq namizədin müdafiəsi üçün imza ata bilər, ancaq bir nəfərə səs vermək hüququna malikdir.

Dövlət orqanlarının və bələdiyyə qurumlarının işçilərinin, mülkiyyət formasında asılı olmayaraq hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir. İmza toplanması prosesində seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər hansı formada mükafatlandırmaq qadağandır. Həmin qadağaya əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, toplanmış imzaların etibarsız sayılması və qeydə alınmış namizədlərin qeydiyyatından imtina üçün əsas ola bilər. Seçici imzalarını Azərbaycan Respublikasının 18 yaşına çatmış aktiv seçki hüququ olan vətəndaşı toplaya bilər.

***– DSK-da namizədlərin qeydə alınması necə aparılır və onların toxunulmazlıq hüquqları varmı?***

– Dairə seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra 5 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir.

Milli Məclisə seçkilər zamanı qeydə alınmış namizəd Seçki Məcəlləsinin 70.4-cü və 151-ci maddələrinə əsasən Azərbaycan Respublikası baş prokurorunun razılığı olmadan, namizəd kimi qeydə alındıqdan sonra törətdiyi əməllərə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz və məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməz. Qeydə alınmış namizəd cinayət başında yaxalanarsa, tutula bilər. Belə razılıq verildikdə və ya qərar qəbul edildikdə, müvafiq prokuror və ya məhkəmə namizədin qeydə alındığı dairə seçki komissiyasını bu barədə dərhal xəbərdar edir.

***– Deputatlığa namizədlər namizədlik statusundan imtina edə bilərlərmi?***

– Qeydə alınmış namizədlər səsvermə gününə, ən azı, 10 gün qalmış müvafiq dairə seçki komissiyasına yazılı ərizə verməklə namizədlik statusundan imtina edə bilərlər. Daxil olmuş ərizə əsasında dairə seçki komissiyası namizədin qeydiyyatının ləğvi barədə 1 gün müddətində qərar qəbul edir.

Siyasi partiya öz nizamnaməsinə uyğun olaraq, siyasi partiyaların bloku isə ona daxil olan siyasi partiyaların səlahiyyətli nümayəndələrinin qərarı ilə səsvermə gününə ən geci 10 gün qalanadək istənilən vaxt müvafiq dairə seçki komissiyasına yazılı ərizə verərək, birmandatlı seçki dairəsi üzrə irəli sürülmüş namizədi və qeydə alınmış namizədi geri çağırmaq hüququna malikdir.

***– Sədri olduğunuz seçki dairəsi üzrə seçkilərə hazırlığın gedişi barədə nə deyə bilərsiniz?***

– 66 saylı Saatlı seçki dairəsi üzrə 50 seçki məntəqəsi fəaliyyət göstərir. Həmin seçki məntəqələrində 50 min 761 nəfər seçici vardır. Seçki məntəqələri müvafiq icra hakimiyyəti orqanı və bələdiyyə qurumlarının yaxından köməyi ilə uyğun binalarda yerləşdirilməklə lazımi sayda otaqlarla təmin edilmişdir. Mərkəzi Seçki Komissiyası dairə və məntəqə seçki komissiyalarını inventar, lazımi avadanlıq, ləvazimat və texniki vasitələrlə tam təchiz edir. Seçki komissiyalarına MSK-nın Milli Məclis seçkiləri ilə əlaqədar hazırladığı təlimatların və digər seçki sənədlərinin vaxtında çatdırılması DSK tərəfindən icra olunur.

Qarşıdan gələn növbədənkənar Milli Məclisə seçkilərə hazırlıq məqsədilə MSK və dairə seçki komissiyası tərəfindən müxtəlif maarifləndirmə tədbirlərinin, seminar-treninqlərin, ixtisaslaşdırılmış kursların keçirilməsi təmin olunacaqdır. Dairə seçki komissiyası nəzdində yaradılmış işçi və ekspert qrupları üzvlərinin hazırlığına xüsusi diqqət yetirilir.

Namizədlərin qeydə alınma prosesinin, seçkiqabağı görüşlərin və seçki günü prosedurunun qanunamüvafiq qaydada təşkili üçün dairə seçki komissiyası tələb olunan vəzifələri yüksək səviyyədə icra etmək iqtidarındadır.

İnanırıq ki, öz hüdudları daxilində dairə və məntəqə seçki komissiyalarının müxtəlif siyasi partiyaları təmsil edən üzvlərinin gərgin əməyi və seçicilərin yüksək fəallığı şəraitində növbədənkənar Milli Məclis seçkiləri maksimal hazırlıq şəraitində keçəcək və xalqın etimadını qazanmış ən layiqli namizədlər deputat seçiləcəklər. Beynəlxalq ictimaiyyət Azərbaycanda daha bir azad, demokratik və şəffaf seçkinin şahidi olacaq.

***Müsahibəni qələmə aldı:***
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Milli Dram Teatrımız Rusiyanın sənət məclislərində



**Zəngin sənət ənənələri olan 105 yaşlı Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı dünya teatr aləmi ilə təmaslar qurmaqda, təcrübə mübadilələri aparmaqda davam edir.**

Ötən günlərdə reallaşan II Rusiya Milli Teatrları Konqresi və Rusiya Milli Teatrlarının Birinci Yay Festivalı bu mənada sənət ocağı üçün əlverişli platformalardan idi. Bu dəfə konqres və festivala fəxri qonaq qismində qatılmaq üçün mədəniyyət nazirinin müşaviri, Əməkdar artist Oleq Əmirbəyov, Akademik Milli Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov və teatrın ədəbi hissə müdiri Cavid Zeynallı dəvət almışdılar.

Səfər təəssüratlarını bizimlə bölüşən teatrın direktoru İlham Əsgərov dedi ki, konqres çərçivəsində 20-dək Rusiya milli teatrlarının rəhbəri ilə, o cümlədən, Aleksandrinski Teatrının, Tatarıstan Dövlət Akademik Milli Teatrının, Başqırd Dövlət Akademik Milli Dram Teatrının, Kalmıkiya Milli Dram Teatrının rəhbərləri ilə qarşılıqlı qastrol səfərləri, festivallarda iştirak və ustad dərslərinin təşkili haqqında müzakirələr aparılıb.

– Milli Dram Teatrı ölkənin ən aparıcı sənət ocaqlarındandır. Yetərincə peşəkar olan yaradıcı heyətimizlə çalışırıq ki, daim yeniliklər edək. Bunun üçün teatr aləmində ən optimal təcrübələr əldə etməyə üstünlük veririk. Beynəlxalq festivallarda iştirakımız və ya teatr forumlarına qatılmağımız bizə bu təcrübələri əldə etmək üçün yeni imkanlar yaradır. Rusiyada düzənlənən bu 2 tədbir də təcrübə və əməkdaşlıq baxımından böyük əhəmiyyət kəsb edirdi. Bu tədbirdə Rusiyanın bütün milli teatrları iştirak edirdi. Mən festivalda mövzusu "Milli teatrın gələcəyi: ənənə və innovasiyanın balansı" olan paneldə çıxış elədim. Bildiyiniz kimi, ötən il Milli Dram Teatrı ilə Aleksandrinski Teatrı arasında birgə yaradıcılıq proqramı hazırlanıb.

Bu proqram çərçivəsində teatr Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda təmsil olunub. Forum zamanı yaranan əlaqələrin nəticəsi olaraq, Aleksandrinski Teatrı ilə əməkdaşlıq memorandumu imzalanmışdı. Layihəyə görə, teatrda "Rusiya səhnəsinin seçilmiş obrazları" adlı sərginin açılışı olub. Aleksandrinski Teatrının təşəbbüsü və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə təhsil proqramı həyata keçirilib. Bu ilin sentyabr ayında 2 teatr arasında mübadilə qastrolu təşkil olunacaq. Tamaşa günlərində Aleksandrinski Teatrında Azərbaycan Milli Teatrının tarixindən bəhs edən sərgi də açılacaq.

Konqres çərçivəsində mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov mövzusu "Maarif və təhsil: milli teatrlar yeni mənaların doğuş nöqtələri kimi" olan panel-müzakirələrdə çıxış edib. İştirak ediyi konqres və festival barədə bilgi verən müşavir mədəni əməkdaşlığın önəmindən danışdı:

– Azərbaycan Mədəniyyət Nazirliyi müvafiq sahədə hər zaman beynəlxalq əməkdaşlığa üstünlük verir. Bu sırada dövlət teatrları öncül rol oynayırlar. Azərbaycan teatrları Rusiyanın sənət aləmi ilə hər zaman əməkdaşlıq edir, təcrübə mübadiləsi aparırlar. Ümid edirəm ki, həmişəki kimi, bu görüşlərimizin də Azərbaycan–Rusiya mədəni əlaqələrinə töhfəsi olacaq. Mədəniyyətimizin inkişafı üçün qurulan beynəlxalq əlaqələr bundan sonra da davam edəcək.

Xatırladaq ki, konqres və festival Rusiyanın Suzdal şəhərinin 1000 illik yubiley tədbirləri çərçivəsində, Rusiya Milli Dram Teatrının (Aleksandrinski Teatrı) təşkilatçılığı ilə gerçəkləşib.

*Ceyhun ALIŞLI*

# Tələbə "İnsan səsi"nə quruluş verib

**Sumqayıt Dövlət Dram Teatrında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin diplomantı Afaq Qədimlinin diplom tamaşasının premyerası keçirilib.**



Gənc rejissor fransız yazıçısı Jan Koktoya müraciət edib. Ədibin ən məşhur səhnə əsərlərindən sayılan "İnsan səsi" monopyesi tanınmış aktrisa Vəfa Qurbanovanın ifasında təqdim edilib. Gənclik şəhərinin teatr səhnəsində əsərin ərsəyə gəlməsi üçün hər cür şərait yaradılıb. Tamaşada tənha qadının iztirabları, cavabsız sualların əzabı, daxili duyğuların pıçıltıda üsyanı, çətin döngələrin zülmət yoruculuğu maraqlı rejissor işi və peşəkar aktyor oyunu ilə çatdırılıb.

Azad Yaşarın rus dilindən tərcümə etdiyi əsərdə müəllif fikrinin fəlsəfi qatı, özünü mühakimənin, qadın psixologiyasının çalarları Afaq Qədimlinin rejissor yozumunda maraqlı detallarla işlənib. Tamaşanın quruluşçu rəssamı Arif Müzəffərov, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyevdir.

Premyerada ünlü sənət adamları – professor İsrafil İsrafilov, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, Əməkdar artistlər Mübariz Həmidov, Gülşad Baxşəlieva, Esmiralda Osmanova və Gümrah Ömər iştirak edib.

Premyeradan sonra SDDT-nin aparıcı aktrisası Vəfa Qurbanova dedi ki, gərgin məşq proseslərindən sonra zəhmətimizin bəhrəsini görəndə sevindim. Bizə dəstək olan hər kəsə təşəkkür edirəm.

*XQ*

# Şairin dağ güzarı və poetik gülzarı

**Filologiya elmləri doktoru, professor Mahirə Nağıqızının şeir yaradıcılığı mövzu genişliyi və rəngarəngliyi ilə diqqəti cəlb edir. Monoqrafiyalar, dərs vəsaitləri və metodik vəsaitlərin müəllifi olan Mahirə xanımın kövrək, duyğulu anlarında qələmə aldığı şeirləri Vətənə, insana, təbiətə, sevincə və kədərə özünəməxsus yanaşmalarla seçilir.**

O, sözlə sədaqətli yoldaşlıq edir, neçə-neçə şeir kitabı çıxıb. Vətən sevgisi bütün şeirlərindən boy göstərir. Şair Vətəni yalnız coğrafi məkan kimi deyil, həm də dilini, tarixini yaşadan, mənsub olduğu




xalqın adət-ənənələrini, milli-mənəvi mənsubiyyətini tarixləşdirən diyar kimi mənalandırır. Şeirlərində doğma Vətən torpağının, eləcə də onun ayrılmaz hissəsi olan Qərbi Azərbaycanımızın gözəlliklərini ürəkdən vəsf edir.

Məlumdur ki, ta qədim dövrlərdən üzübəri Azərbaycan ədəbiyyatında dağlar mövzusunda minlərlə şeir yazılıb. Dağların əzəməti, etibarı, çəni-dumanı, sıx meşəli, laləli yamacları, buz bulaqları və s. poetikləşdirilib. Bu ənənəvi mövzu çağdaş lirik-fəlsəfi şeirimizin tanınmış simalarından olan Mahirə Nağıqızına da doğmadır. O, xəyalən doğma ata-baba yurduna qayıdır, oranın təbiətini yada salır, ustad aşıq Ələsgərin "xəstə üçün təpəsində qar, çeşməsində abi-həyat car olan süsənli, sünbüllü, lalalı dağları" kino lenti kimi gözləri önündə canlandırır. Gülü-nərgizi saralan doğma elin dağlarını qəmli-qəmli xatırlayan şair üzünü anasına tutaraq soruşur:

***Yenə də görüb dağları,***
***Gəzirəm qərib dağları.***
***Ay ana, hara gəlmişik***
***Düşmənə verib dağları?***

M.Nağıqızının şeirlərinə, sanki, dağların təmiz havası hopub. Poetik nümunələrində təbiətin müdrikliyinə, dağların sadiqliyinə bir heyranlıq var. Şair sinəsini dəftər edib, dağları səhifə-səhifə, misra-nisra sıralayır. Umu-küsüsünü, arzusunu dilə gətirir. Axı dərdi olanlar dağlarda həmdəm, zirvələrdə məlhəm axtarır.

***Demirəm ki, acıq edim,***
***Ömrümü mağarıc edim.***
***İstərəm ismarıc edim,***
***Eşidə sevdiyim dağlar.***

Dağ mövzulu şeirlərindən göründüyü kimi, Mahirə Nağıqızı nisgilli vaxtlarında, ürəyi dolub-daşanda dağlarda gəzməyi, qoca təbiəti seyr etməyi hər şeydən üstün tutur, bir növ o yerlərdə təskinlik tapır:

***Tanrı, qurban olum, saxla,***
***Belə taxtında dağları.***
***Sevdiyindən ayrı salma,***
***Görsün baxtında dağları.***

***Demə ki, ağlar qızıdı,***
***Bağlayan ilqar qızıdı,***
***Mahirə dağlar qızıdı,***
***Saxlar bağrında dağları.***

Mahirə Nağıqızının şeirləri oxucuları duyğulandırır, hər kəsə doğma gəlir, sanki hər kəs onun misralarından öz səsini eşidir. Bu münasibət isə şairin qəlbini dağa döndərir, saflaşdırır, ülviləşdirir. Aşkar görünür ki, şairin lirik qəhrəmanının qəlbi dağlara, qədim yurd yerlərinə hədsiz məhəbbət hissi ilə döyünür.

***Dərmandı qarı dağların,***
***Tərlandı yarı dağların.***
***Sevgimə qolu açıla,***
***Bir dəfə barı dağların.***

İnanırıq ki, vaxt gələcək və o əzəli-əbədi yerlər də, ucalığından enməyən dağlar da qollarını geniş açaraq öz doğma övladlarını qoynuna alacaq. Onda Mahirə Nağıqızının bu mövzuda daha böyük poetik gəzişmələrinin şahid olacağıq.

***Razim MƏMMƏDOV,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***dosent***

Bölgələrin mədəni həyatı

# Masallının 100 yaşlı kitab xəzinəsi

**Neçə il öncə ilk dəfə Cənub bölgəsinin gözəl diyarı olan Masallıda Heydər Əliyev Parkına üz tutan zaman orada gül-çiçəyin arasındakı birmərtəbəli binaların birinin fasadında mərkəzi kitabxana olduğu bildirilən ünvan lövhəsinə rast gəlmiş, maraqlanıb içəri keçmişdim. Elə də yüksək şəraiti olmayan həmin kitabxanadakı səliqə-sahman, biblioqrafların işgüzarlığı diqqətimi çəkmişdi. Sonralar orada bir neçə tədbirdə iştirak etmişdim.**




Bu səfərimdə təsadüfən oradan keçəndə bunları xatırladım. Dostum – politoloq Seyfəddin Əliyevlə görüşümdə ondan kitabxananın necə fəaliyyət göstərdiyini soruşdum. Dedi ki, ideal şəraiti olmasa da, bu gərəkli məkanda yenə də vaxtaşırı maraqlı görüşlər, müzakirələr, təqdimatlar keçirilir. Bədii ədəbiyyat həvəskarı olan oxucular kitabxananın xidmətlərindən yararlanırlar.

Onu da öyrəndim ki, Masallı kitabxanasının artıq 100 yaşı var. Düz 1 əsr öncə – indiki şəhərə aid ərazidə, "Tacir rastası" adlanan mərkəzi hissədə, əhalinin maarifləndirilməsi üçün indiki Şah İsmayıl Xətai heykəlinin şimal tərəfində ilk kitabxana yaradılıb. Həmin ictimai oxu zalını açmağın təşəbbüskarı ovaxtkı yerli Muzdurlar Komitəsi olub. Onda Masallıda cəmi bir neçə ibtidai məktəb vardı, əksər insanlar yazıb-oxumaq bilmirdilər. Kitabxananın fonduna, ilkin olaraq, ayrı-ayrı ziyalı şəxslər – Abı Mirzəyev, Qulamhüseyn Məmmədov, Kamil Filatov, Həsənağa Kərimov və başqaları 250 nüsxə kitab bağışlayıblar. İlk vaxtlar oxucuların sayı 15 nəfər olub, tədricən artıb.

Kitabxana həmin kiçik otaqda fəaliyyətini 1930-cu ilə qədər davam etdirdi. Həmin il "Tacir rastası" söküldüyünə görə, kitabxana Cavad bəyin evinə (Hazırda Rayon Məşğulluq İdarəsinin, Əmək Müfəttişliyinin və sair dövlət idarələrinin yerləşdiyi ərazi) köçürüldü. Get-gedə Masallı kitabxanasının kitab fondu xeyli genişləndi, təhsilli insanların sayı artdı və mütaliəyə maraq nəzərəçarpacaq dərəcə çoxaldı. Elə həmin ildən kitabxana dövlət büdcəsinə daxil edildi və oraya bir nəfər ştatlı işçi ayrıldı. Məlumatlarda qeyd olunur ki, kitabların sayı 1931-ci ilin əvvəlləri üçün 2000 nüsxəyə, oxucuların isə 1000 nəfərə çatırdı. Nəhayət, 1934-cü ildə Masallı rayonunda rəsmi olaraq Mərkəzi Kitabxana yaradıldı.

Heydər Əliyev Parkındakı kitabxananın binası isə 1970-ci ildə istifadəyə verilib. Bundan bir neçə il sonra rayonda fəaliyyət göstərən kitabxanalar vahid sistem halında birləşdirilərək Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılıb. Mərkəzləşdrilimiş Kitabxana Sisteminə kənd kitabxanaları da qatılıb. Müxtəlif vaxtlarda bu mədəniyyət ocağına Murtuza Bağırov, Şəfi Mahmudov, Lazım Ağarzayev, Şəhla Həsənova, Adil Heydərov, Ələddin Nəzərov rəhbərlik ediblər. Hazırda kitabxananın rəhbəri gənc və işgüzar kadr olan Zamin Məmmədovdur. Onun dedikləri:

– Bir əsr öncə 250 nüsxə kitab fondu və 15 oxucu sayı ilə fəaliyyətə başlayan kitabxanamız indi 265 min 137 kitab fondu, 33 min 198 oxucu sayı ilə fəaliyyətini davam etdirir. Hazırda sistemdə 1 mərkəzi, 1 şəhər, 2 qəsəbə və 44 kənd kitabxana filialı fəaliyyət göstərir. Çoxlu sayda, müxtəlif bədii, texniki və tədris vəsaitlərimiz var. Bəzi kitabxanalarımız uyğunlaşdırılmış binalarda yerləşsə də, işçilərimiz əhalinin xidmətində can-başla dayanırlar. Doğrudur, hələlik, elektron xidmət göstərmək imkanı bir qədər zəifdir, amma inanırıq ki, tezliklə bu da yoluna qoyular.

"Qocaman" kitabxanada vaxtaşırı yaddaqalan görüşlər olur. Bir müddət əvvəl Lənkəran–Astara Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Masallı Rayon Mərkəzi Kitabxanasının 100 illik yubileyi qeyd olunub. Əvvəlcə kitabxananın önündə təşkil edilmiş sərgiyə baxış keçirilib və gənc oxucular açıq havada kitab oxumaq, habelə kitabxanaya üzv yazılmaq imkanından yararlanıblar. Fəallara kitabxananın fəxri fərmanları verilib. İcra hakimiyyətinin məsul işçisi Abbas Abbaszadə, YAP Masallı Rayon təşkilatının sədri Seyfəddin Əliyev, yazıçı-publisist Nurəddin Ədlioğlu, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı rayon komitəsinin sədri Vəkil İsmayılov çıxış edərək təbriklərini çatdırıb, kitabxanaya hədiyyələr təqdim ediblər. N.Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzinin solistləri, Onbirillik İncəsənət Məktəbinin müəllimləri, Şərəfə Folklor evinin əməkdaşlarının ifasında canlı musiqi, kitabxana filialları, mədəniyyət klublarının əməkdaşlarının, şəhər 3 saylı körpələr evi-uşaq bağçasının fidanlarının təqdimatında şeirlər səsləndirilib.

***Əli ƏLİYEV***
***XQ***

# Londondan Sidneyə 25 illik veloyürüş

## *Builki 11-ci marşrut "Tbilisi–Bakı" oldu*



**Müxtəlif ölkələr arasında məsafələri əhatə etməklə velosiped yürüşləri təşkil edən "Ride 25" şirkətinin builki 11-ci yürüşü bu günlərdə Azərbaycan və Gürcüstan ərazilərindən keçərək başa çatıb.**

Ümumi məsafəsi 563 kilometr təşkil edən veloyürüş Tbilisi–Telavi–Qax–Qəbələ–Bakı marşrutu ilə iştirakçılara Qafqazın qədim yaşayış məskənlərini və tarixi yerlərini kəşf etmək, Azərbaycanın zəngin mədəni irsi ilə yaxından tanış olmaq imkanı yaradıb. Bu barədə veloyürüşün təşkilatçı, həm də iştirakçılarından biri, İngiltərədə yaşayan fəal soydaşımız Kamran Əzizinin fikirlərini öyrəndik. O qeyd etdi ki, yürüşün məqsədi Londondan başlayıb, 25 il ərzində Sidneydə bitirməkdir.

– Hər il 100-dən çox velosipedçi ilə 700–800 kilometr yürüş edirik. Əsas məqsəd Afrikada aclıqdan əziyyət çəkən uşaqlara maddi dəstək göstərməkdir. İndi orada yetim uşaqlar üçün bir yataqxana açılmışdır və oranın təminatında onlara yardım edirik. Veloyürüş sayəsində Uqandada açılan yetimlər evində 180 uşağın qida və digər tələbləri ödənilir.

Bildiyimiz kimi, quru sərhədlər bağlı olduğundan bu veloyürüşümüzdə müəyyən çətinliklər yaratmışdı. Veloyürüşü davam etdirmək istəyən təşkilatçılar məcbur olaraq, Ermənistandan keçməli idilər. Lakin biz istədik ki, bu cür nəcib məqsədli iş məhz öz Vətənimizin ərazisindən keçsin. Bu məsələdə bizə Diasporla İş üzrə Dövlət Komitəsindən, Azərbaycan Velosiped Federasiyasından dəstək gəldi. Onlar veloyürüşün Azərbaycandan keçməsi üçün əllərindən gələni etdilər. Beləliklə, biz iyunun 24-də Tbilisidən başladıq, oradan Telaviyə və oradan Balakənə və Qaxa keçdik. Azərbaycan sərhədçiləri, icra məmurları, polisləri bizi çox yaxşı qarşıladılar və yola saldılar.

Sonra Bakıya gəldik. Burada da çox yüksək səviyyədə qarşılandıq. Bu özəl münasibətdən veloyürüşün iştirakçıları çox razı qaldılar. Onlar bu istiqanlılığı, qonaqpərvərliyi dönə-dönə qeyd etdilər.

Bakıda bizim tərəfimizdən bir təşəbbüs də bu oldu ki, ərazi bütövlüyümüz uğrunda şəhid olan qəhrəmanlarımızın övladları ilə görüşərək onların könlünü alaq. Sonra "Ride 25" şirkətinin rəhbəri Rob Hamiltonla birgə 15 şəhid övladına



velosiped hədiyyə etdik. Dənizkənarı Milli Parkda hədiyyələrin təqdimatında iştirak edən uşaqlar yüksək əhval-ruhiyyədə yeni velosipedlərini bulvarda sınaqdan keçirdilər. Bir daha yürüşün Azərbaycandan keçməsinə yaratdığı şərait üçün Azərbaycan dövlətinə təşəkkürümü bildirirəm.

Kamran Əzizi əlavə etdi ki, sonda, Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən velosiped yürüşünün iştirakçılarına Azərbaycan mədəniyyətinə, tarixinə aid kitablar hədiyyə edilib.

Qeyd edək ki, "Ride 25" şirkəti dünyada tanınmış velosiped yürüşləri təşkilatçısıdır. Qurumun məqsədi müxtəlif ölkələr arasında yürüşlər təşkil etməklə, insanları idmana və səyahətə təşviq etmək, eləcə də müxtəlif xeyriyyə layihələrinə dəstək olmaqdır.

***Anar ƏLİ***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Co Bayden çətin seçim qarşısında

## Demokratlar ona əvəz axtarırlar

**ABŞ Prezidenti Cozef Bayden çərşənbə günü axşam Ağ evdə demokrat qubernatorlarla görüşüb. Partiya üzvləri ilə görüş seçicilərə və siyasətçilərə dövlət başçısının səhhətinin yaxşı olduğunu və prezidentin rəqibi, Ağ evin sabiq sahibi Donald Trampla debatda uğursuz çıxışının anlaşılmazlıq olduğunu göstərmək məqsədi daşıyıb. Bununla belə, bütün bu izahatlar partiyada şübhələri azaltmır. Eyni zamanda, cənab Tramp məhkəmədə mühüm qələbə qazanıb: maliyyə fırıldaqları işi üzrə onun hökmü sentyabrın 18-nə təxirə salınıb, bu isə o deməkdir ki, cənab Baydenlə ikinci debatda iştirak edə biləcək.**



Donald Trampla debatdan dərhal sonra prezidentlik yarışından geri çəkilməkdən imtina edən Co Baydenin uğursuz çıxışı ilə bağlı izahatı artıq məlumdur. ABŞ prezidenti etiraf edib ki, o, iyunun 27-də “heç də yaxşı axşam keçirməyib” və bütün bunlar onun öz imkanlarının həddən artıq qiymətləndirilməsi ilə bağlıdır: “İş ondadır ki, mən çox ağıllı davranmamışam. Debatdan əvvəl yüz saat qurşağı keçərək dünyanı bir neçə dəfə uçmaq qərarına gəldim. Məsləhətçilərimi dinləmədim, qayıtdım və səhnədə, az qala, yuxuya getdim. Bu, bəhanə deyil, izahatdır”. Hələlik, demokrat-namizəd açıq şəkildə yarışı tərk etməkdən imtina edir və Donald Trampı məğlub etməyə qadir olduğuna əmindir.

Bununla belə, “The New York Times” qəzetinin siyasətçinin çevrəsindən olan həmsöhbətlərinə istinadən verdiyi məlumata görə, şəxsi söhbətlərində o, yenidən seçilmək fikrindən imtina etmək ehtimalını istisna etməyib. Mənbələrin sözlərinə görə, Co Bayden öz uğursuzluğunun mümkünlüyünü anlayır və yaxın günlərdə bütün riskləri qiymətləndirmək niyyətindədir. Lakin Ağ ev bu xəbəri təkzib edir. Ancaq prezidentin birbaşa vəzifələrini yerinə yetirməsi – digər dünya liderləri ilə təmasları səbəbindən Donald Trampla şifahi duel üçün kifayət qədər gücə malik olmaması arqumenti, görünür, nə seçiciləri, nə də Demokratlar Partiyasının bir hissəsini razı salıb. CNN-in son sorğusuna görə, debatdan sonra demokrat-namizəd respublikaçı Donald Trampdan 6 faiz geridədir. Sorğulara görə, ölkə üzrə seçicilərin 43 faizi Co Baydenə, 49 faizi isə Donald Trampa səs verməyə hazırdır.

Mütəxəssislər bildirirlər ki, prezidentlik yarışında üçüncü namizədlərin iştirakı cənab Baydenin dəstəyini 35 faizə düşürə, cənab Trampın isə 41 faizə yüksəldə bilər. Müstəqil siyasətçi kimi yarışa qatılan oğul Robert Kennedinin demokratların səslərinin əhəmiyyətli hissəsini ala biləcəyini ehtimal etsək, o zaman bu amilin Co Baydenin 5 noyabr seçkilərində qalib gəlməsinə təsir göstərəcəyi güman olunur.

Amerikanın “The Washington Post” qəzetinin yazdığına görə, hətta fəlakətli debatdan sonra həmkarını açıq şəkildə dəstəkləyən sabiq prezident Barak Obama da şəxsi söhbətlərində Co Baydenin seçki perspektivlərinə böyük şübhələr ifadə edib. Nəşr qeyd edib ki, cənab Obama bunu şəxsən cənab Baydenə deməyib, yalnız məsləhətçi və ekspert kimi yardımını təklif edib.

Amma ABŞ Konqresinin Nümayəndələr Palatasından olan demokratlar açıq şəkildə danışmağa başlayıblar. Məsələn, Texas Nümayəndələr Palatasının üzvü Lloyd Doggett prezidenti yarışdan çəkilməyə çağırıb. Nensi Pelosi Co Baydeni dəstəklədiyini bildirsə də və onu seçkilərdə iştirakdan çəkindirməsə də, məntiqi olaraq belə bir sual verib: prezidentin debatdakı uğursuzluğu başqa amillərlə yanaşı, uçuşdan sonra yorğunluqla da əlaqəli qəza idi, yoxsa bu daimi, tam qabiliyyətli olmayan dövlət məsələsidir? Əslində, əksər seçicilər üçün bu, daha çox ritorik sualdır. Pelosinin verdiyi ikinci sual bu olub: Bayden seçicilərə ölkəni idarə edə biləcəyinə zəmanət verə bilərmi?

ABŞ mediası yazır ki, Nümayəndələr Palatasının 25 demokrat üzvü Baydendən yarışdan çıxmağı xahiş etməyi planlaşdırır. Vitse-perzident Kamala Harrisin prezidenti əvəz edəcək əsas namizəd olacağı iddia edilir. Demokratlar bildirirlər ki, ilk növbədə, xanım Harris ölkədə tanınır. İkincisi və daha da vacibi, Kamala Harris vitse-prezidentdir və lazım gələrsə, o, ölkə başçısını əvəz etməlidir. Üstəlik, son sorğulara görə, Trampla baş-başa qarşıdurmada o, cəmi 1 faiz arxada qalır. Nüfuzlu konqresmen Jim Klaybern isə bildirib ki, vitse-prezident Kamala Harrisin namizədliyini dəstəklir, ancaq o da açıq şəkildə Co Baydeni kənara çəkilməyə çağırmır. Maraqlıdır ki, cənab Klaybern Amerika mediası tərəfindən cənab Baydenin 2020-ci ildə qələbəsində, az qala, əsas rol oynamış şəxs kimi adlanır.

Qeyd edək ki, Co Baydenin yarışdan geri çəkilməsinin əleyhdarları, araşdırmalara görə, yarışda hazırkı prezidenti əvəz edə biləcək demokratların da Donald Trampa uduzduğunu təkid edirlər. Yalnız Kamala Harris daha yaxşı göstəriciyə malikdir. Onun Ağ evin sabiq rəhbəri ilə qarşıdurmada reytinqi Co Baydendən yüksək olan yeganə potensial namizəddir. Lakin Kamala Harrisin mətbuat xidməti, öz növbəsində, qısa şəkildə əmin edib ki, “Vitse-prezident Harris Prezident Co Baydenlə birlikdə ikinci müddətə yenidən seçilməyə ümid edir”.

“Ipsos” sosioloji xidməti də sorğu keçirib və ondan məlum olub ki, demokratlar Co Baydenin yerinə Barak Obamanın həyat yoldaşı Mişeli təyin etsəydilər, kampaniyanın gedişatı kəskin şəkildə dəyişəcəkdi. ABŞ-ın sabiq birinci xanımı artıq bəyan edib ki, o, yarışa qatılmaq və ümumiyyətlə, siyasətə getmək fikrində deyil, lakin fikrini dəyişsə, səslərin 50 faizinə arxalana bilər. Onunla qarşıdurmada Donald Trampın reytinqi 39 faiz təşkil edir. Doğrusu, demokratlar sabiq birinci ledini – Mişel Obamanı ən yaxşı namizədlər arasında görürlər, lakin onun idarəçilik təcrübəsinin olmaması vəziyyəti qəlizləşdirir.

Bununla belə, istənilən halda demokratlar prezidentdən vəziyyətlə bağlı qəti addım gözləyirlər. Demokratların ən böyük sponsorlarından biri Çarlz Mayersin sözlərinə görə, Co Baydenin qərar qəbul etmək üçün üç həftəsi yoxdur – o, seçki yarışında qalıb-qalmayacağına qərarı dörd-beş gün ərzində verməlidir. Cənab Myersin sözlərinə görə, debatdan sonrakı gecə “yarışın gedişini kökündən dəyişdirib”. USA Today sorğusuna əsasən, demokratların tərəfdarlarının 41 faizindən çoxu Baydenin dəyişdirilməsini istəyir. Doğrudur, onların əksəriyyəti hələ də indiki prezidentə səs verəcəklərini bildirirlər. Ona görə ki, cənab Trampın Ağ evə qayıtmasını istəmirlər. Respublikaçılarda vəziyyət çox da fərqli deyil. Amma istənilən halda Co Baydenin başqa namizdələ dəyişdirilməsi tələbi daha ciddi səsləndirilir.

***S.ELAY***
***XQ***

Təbiət sınağa çəkir

# Su aydınlıqdır, ancaq boğaza qədər

**Aprelin ortalarında hər gün qara buludlar dönə-dönə o yana gedirdi, bu yana qayıdırdı, ancaq bizim tərəflərə yağmırdı ki, yağmırdı. Əngəxarana, Masazıra, hətta dənizə də yağırdı, amma, ancaq və lakin nə Cəfərliyə, nə də Hacıuşağıya yağmırdı ki, yağmırdı...**

Onda bizim çamaat səhər-axşam Gözəgörünməzə dua edirdi ki, yağsın. Ancaq onlar yağışı yenə yuxularında görürdülər. Halbuki o günlərdə bircə dəfə yağış düşsəydi, zəmilərin məhsuldarlığı xeyli artardı. Təəssüf ki, bir az gec yağdı və xeyirindən ziyanı çox oldu – zəmiləri, biçənəkləri yatızdırdı... Deyilən səbəbdən zəmilərin çoxu səpilən toxumu belə vermədi. Hətta bəzi ərazilərdə taxıllar ot kimi biçildi...

Sən demə, çörəyi torpaqdan çıxan insanların apreldə etdikləri dualar bu günlərdə müstəcəb olacaqmış. İyunun 26-da axşam, respublikamızın çox yerlərində olduğu kimi, bir leysan düşdü ki, dillə deyiləsi deyil... Hər yan gölə döndü və dağlardan baş alıb gələn sel suları şor kanallara, arxlara, yarğanlara tökülüb Cəfərli və Hacıuşağını cənginə aldı. Ən yaşlı sakinlər son yüz ildə bu yerlərə belə yağış düşməsini xatırlamırlar. Vaxtılə Ağsuçaya, sonralar Yuxarı Şirvan kanalının suyuna möhtac olanlar indi, belə demək olarsa, boğazadək suda üzməyə hazırlaşırdılar (Təbii ki, su aydınlıqdır, ancaq boğazadək...).



Yollar, həyətlər su ilə doldu. Cəfərli cavanları səfərbər olub əvvəlcə kənd qəbiristanlığını seldən qorumaq üçün bellə kiçik arxlar qazdılar, bəndlər vurdular və əzizlərinin məzarlarını seldən qurtardılar. Günün qəhrəmanları sel sularının daha çox axıb gəldiyi böyük kanalı bir neçə yerdən Cəngi gölünün yatağına doğru yardılar. O dəqiqələrdə mən də onların arasında idim və selə qarşı görülən tədbirləri müşahidə edir, kanalın üstündəki körpüdə dayanıb bulanıq sel sularına baxdıqca vahimələnirdim. Ayağımdakı uzunboğaz rezin çəkmə su ilə dolsa da gəncləri daha ürəklə işləməyə ruhlandırmaq istəyirdim... Bu ara uşaqlıq yoldaşlarımdan biri zarafatla dedi ki, ay, qardaş, sən canın körpünün üstündən kənara çəkil, sel oranı da yuyur, sonra dalğıc gəlsə də səni tapa bilməyəcəyik... Vəziyyət qorxulu idi. Təbii fəlakət getdikcə genişlənirdi (Həmin dəqiqələrdə kəndin yeniyetmə "tik-tok"çuları sel fəlakətini tarixləşdirirdilər. İnanıram ki, həmin süjetlər toplansa, yaxşı sənədli film alınar. Amma mən bu yazıya sel sularının Hacıuşağıdakı fəsadları barədə dostum Natiqin çəkdiyi lenti əlavə etmişəm).

Onu da deyim ki, axşamdan Cəfərlidə və qonşu kənddə həyətlərin çoxu su ilə dolmuş, nəticədə, xeyli heyvan və toyuq-cücə tələf olmuşdu.... O saatlarda və səhərədək kənd sakinlərinin müxtəlif təşkilatlara zəngləri cavabsız qalmışdı. Kənddə bir dənə də olsun qazıntı aparacaq texnika yox idi. Olsaydı, yəqin ki, fəlakətin qarşısını, müəyyən qədər, almaq olardı. Səhəri gün günorta saatlarında gələn traktorla bir neçə yerdən suyun istiqaməti dəyişdirildi və nisbətən sakitlik yarandı. Amma su basmış yerlərdə hələ də gölməçələr qalmaqdadır... Çoxları şükr edir ki, nə yaxşı, bu leysan payız-qış aylarında düşməyib, çünki nəticəsi çox-çox ağır ola bilərdi.

Nə isə, zarafatla deyim ki, cəfərlililər, eləcə də qonşularımız iki il su içməsələr bəsdəridi. Söhbətin bu yerində kəndlərin ətrafındakı şor kanallar barədə də bir neçə kəlmə yazsaq yerinə düşər. Məlumat üçün deyim ki, bu kanallar 55–60 il əvvəl sovetlər dönəmində qazılıb. Səhv etmirəmsə, SSRİ Nazirlər Soveti Azərbaycanda meliorasiya tədbirlərinə dair geniş qərar (ilini dəqiq xatırlamıram) qəbul etmişdi və çoxlu vəsait ayırmışdı. Başlıca məqsəd torpaqları şorlaşmadan qorumaq, suya həsrət sahələrə su çıxarmaq üçün beton kanallar çəkmək idi. Qısaca desək, həmin proqram-layihə çox uğursuz başa çatdırıldı və işlərin çoxu başdansovdu görüldü (Bu barədə uzun danışmaq və yazmaq olar). İlk illərdə, insafən, kompleks tədbirlər, az da olsa, səmərə verdi. Amma illər keçdikcə, kanallar müxtəlif səbəblərdən doldu, drenaj boruların gözü lillə tutuldu, beton arxların və kanalların təmizlənməsi, təmiri sanki biləçəkdən unuduldu. Arabir bəzi yerlərdə, gözə kül üfürmək üçün çox çüzi işlər görüldü. Sonralar böyük şor kanallarını lığ və qamış basdı. Sahələrdən o kanallara axan sular axmazlara çevrildi. Həyətyanı torpaqların şorunun yuyulması üçün əhali tərəfindən çəkilən xırda kanallar da işə yaramadı. Kənd əhalisi bu barədə çox təşkilata şikayət və zəng etdi, amma onların dərdinə əlac edən tapılmadı. Halbuki bölgədə hansısa qurum bu ərazilərdəki kanalların təmiri, təmizlənməsi işləri üçün hər il dövlətdən xeyli pul alır (Bu, bir araşdırma işidir).

İndi cəfərlililər və qonşuları dua edib, nəzir verirlər ki, hələ bir-iki ay yağış yağmasın. Olan oldu – xeyli mal-qara, ev quşları, nar bağları tələf oldu. Hələ həyət-bacalar quruyandan sonra nələr olacaq, onda bilinəcək.

Amma yenə qəfil göy guruldayır, arvad-uşaq qorxur, qara buludlar isə o yana gedir, bu yana gedir...Allah xeyirlisi nədir ondan eləsin!

**Səməd MƏLİKZADƏ**

# Həssas qruplara dövlət qayğısı artır






### Reabilitasiya xidmətləri

Bərdə şəhərindəki Qarabağ Regional DOST Mərkəzinin “RehaPoint” məntəqəsi bölgə sakinlərinə ambulator reabilitasiya xidmətlərini davam etdirir.

Bu barədə XQ-yə məlumat verən Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin şöbə müdiri Tural Qurbanov qeyd edib ki, ötən il dekabrın 1-dən fəaliyyətə başlayan məntəqədə indiyədək 750-dən çox əlilə reabilitasiya xidmətləri göstərilib. Burada ambulator formada müalicəvi bədən tərbiyəsi, əmək terapiyası, psixoloq və loqoped xidmətləri təşkil edilib.

Müəssisə əlilləri ehtiyac duyduqları reabilitasiya vasitələri ilə də təmin edir. Ötən dövrdə “RehaPoint”də 300-dən çox şəxsə reabilitasiya vasitəsi verilib.

### 18 əlil Türkiyədə təcrübə keçəcək

Sosial Xidmətlər Agentliyi Əlilliyi olan Şəxslərin Peşə Əmək Reabilitasiyası Mərkəzi əlilliyi olan daha 18 gənci Türkiyəyə təcrübə kursuna göndərib.

Yolasalma mərasimində agentliyin İdarə heyətinin sədri Vüqar Behbudov mərkəzin bu il daha 30 nəfəri bu təcrübə proqramına cəlb edəcəyini bildirib. O deyib ki, gənclərimiz qardaş ölkənin Ankara və Antalya şəhərlərində əlilliyi olan şəxslərlə bağlı peşə kurslarında iştirak edərək, bacarıqlarını daha da təkmilləşdirəcəklər. Belə təcrübə səfərləri Sosial Xidmətlər Agentliyi ilə “Sağlam düşüncə” Gənclər Təşkilatı arasında imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, Avropa İttifaqının Avropa Həmrəylik Korpusu Proqramı çərçivəsində təşkil olunur. İndiyədək 147 əlil Türkiyədə təcrübə kurslarına göndərilib. Onlardan bir hissəsi Vətən müharibəsi qazisidir.

### 570 benefisiar təlimlərdə iştirak edib

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində həssas qruplara aid şəxslərin yaradıcı potensialının inkişafına, onların reabilitasiyası və cəmiyyətə inteqrasiyasına dəstək işləri aparılır. İndiyədək burada 570 benefisiar müxtəlif fəaliyyət istiqamətləri üzrə təlimlərə cəlb olunub.




2021-ci ilin oktyabr ayında açılışı olan mərkəzdə rəqs, təsviri incəsənət, dulusçuluq, musiqi, dərzilik, modelyerlik, xalçaçılıq, toxuma, tikmə, bədii oyma, floristika, bağçılıq və landşaft dizaynı, audio-səsyazma, fotoqrafiya, kulinariya, səhnə ifaçılığı, kapoeyra, badminton və s. üzrə təlimlər təşkil edilir. Təlimləri uğurla başa vuranlara sertifikatlar təqdim edilib. Hazırda burada 180 nəfər benefisiar təlimlərdə iştirak edərək bacarıqlarını təkmilləşdirir. Onlardan 136 nəfəri əlillər, digərləri aztəminatlı ailələrdən olanlar, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslər, şəhid ailələrinin üzvləri, müharibə ilə əlaqədar əlil olanlar və onların ailə üzvləridir. Mərkəzdə kompleks reabilitasiya, sosial - pedaqoji inkişaf və psixoloji dəstək işləri də aparılır.

### Zorakılıq qurbanlarına yardım

Sosial Xidmətlər Agentliyinin sosial sifarişləri əsasında Bakıda və Gəncədə məişət zorakılığından zərər çəkmiş şəxslər üçün yardım mərkəzləri fəaliyyətə başlayıb.

Mərkəzlər “Məişət zorakılığından zərər çəkmiş şəxslər üçün yardım mərkəzlərinin inkişafına dəstək” layihəsi çərçivəsində yaradılıb. Məqsəd məişət zorakılığından zərər çəkmiş şəxslərin vəziyyətinin yaxşılaşdırılması, hüquqlarının qorunması, ahəngdar inkişafının təmin edilməsidir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 138 (30542) 5 iyul 2024-cü il, cümə

# “Cərrah” qarışqalar

**Alimlər bir-birinin üzərində cərrahi əməliyyat edə bilən “Florida dülgəri” adlı qarışqa növü aşkar ediblər. Florida adasına xas olan bu qarışqa növü yuva yoldaşlarının yaralı üzvünü seçərək, onları kəsib müalicə edir.**



“Current Biology” jurnalında dərc olunan araşdırmada tədqiqatçılar bu əməliyyatın qarışqanın sağalmasına kömək etdiyini aşkar ediblər. Araşdırmaçılar, həmçinin müəyyən ediblər ki, bu qarışqa növü yalnız ağızları ilə yaranı təmizləyirlər. Ağızları ilə zədələnmiş ayaqları amputasiya edirlər. Bud və baldır sümüyündəki zədələr yuva yoldaşı tərəfindən kəsilib təmizlənir.

2023-cü ildə nəşr olunan bir məqalədə, Afrikanın Sub-Saharasında tapılan “Megaponera analis” adlı qarışqalar qrupunun mümkün infeksiyaları aradan qaldırmaq və aldıqları zədələri sağaltmaq üçün xüsusi bir bezdən istifadə etdikləri barədə məlumat verilmişdi.

Qeyd edək ki, alimlər bu qarışqa növlərini yaranın necə və hardan yarandığını görmələri, onu nə cür təmizləməyi bilmələri və s. hərəkətlərinə görə insana rəqib ola biləcək yeganə tibb sistemi kimi qiymətləndirirlər.

Araşdırmaçılar indi bu davranışın nə qədər həqiqətə uyğun olub-olmadığını görmək üçün digər qarışqa növləri ilə oxşar təcrübələr keçirirlər. Aparılan tədqiqatlar zamanı qarışqaların əməliyyat zamanı ağrıya nə qədər müddətə tab gətirib-gətirməyəcəkləri də yoxlanılır.

***S.FİDAN***
***XQ***

Sağlamlıq

# Möhkəm ol, ay ürək – sağlam qida sənə dirək

**Ürəyi xəstəliklərdən qorumaq üçün profilaktika məqsədilə bir sıra qida məhsullarının qəbulu zəruridir. Dietoloqlar bu qidalardan bəzilərinin gündəlik rasiona daxil edilməsini və qəbulunu tövsiyə edir. Bunlar aşağıdakılardır:**



**Brokkoli.** Nəinki ürəyi qoruyur, hətta onda xəstəliklərin yaranması və inkişafı riskini azaldan fitonutrientlərlə zəngindir.

**Balıq.** Omeqa-3 yağ turşuları ilə zəngindir. Omeqa -3 qanda xolesterinin səviyyəsini aşağı salır, eyni zamanda, tromb və infarkt riskini azaldır.

**Giləmeyvələr.** Ürək əzələlərini möhkəmləndirən və orqanlardakı soyuqlamanı aradan qaldıran antioksidantlarla zəngindir.

**Avokado.** Qanda xolesterinin səviyyəsini aşağı salır, ürək-damar xəstəliklərinin yaranmasına əngəl olur.

**Kök.** Ürək xəstəliklərinin və infarktın qarşısını alan beta-karotinlə zəngindir.

***Z.HÜSEYNLİ***
***XQ***

Futbol tariximizdən

# Tofiq Axundov – unudulmaz qollar müəllifi

**Bu gün XX əsrin II yarısında Sovet İttifaqı çempionatlarında “Neftçi”nin şərəfini qorumuş, onun uğurları üçün meydanda böyük əzmkarlıq göstərmiş, fədakarlıq nümunəsi olmuş futbolçuları xatırlayarkən Tofiq Cavad oğlu Axundovu indiki idman ictimaiyyətimizə yaxından tanıtmaqla, yəqin ki, yaxşı bir iş görmüş olarıq. Bu ucaboy və möhkəm bədən quruluşlu mərkəz müdafiəçisi 1966-cı ildə bürünc medal qazanmış komandanın heyətində meydana çıxmasa da, onun pərəstişkarlarında özü haqqında sərrast zərbələr ustası, qol vurmaq bacarığı ilə fərqlənən müdafiəçi təsəvvürü yaratmış və dəfələrlə onların alqışlarını qazanmışdı. Axundov SSRİ çempionatlarında vurduğu 4 qoldan birini bu dəqiqələrdə də yaxşı xatırlayıram. Təxminən, 30–35 metr məsafədən güclü və dəqiq cərimə zərbəsi ilə Kişinyovun “Moldova” komandasının qapısına vurulan qol stadionun tribunalarına toplaşan 40 min azarkeşi bir andaca ayağa qaldırdı.**

İndi statistikanın köməyilə 1963-cü il oktyabrın 27-də 25-ci SSRİ çempionatı çərçivəsində Bakıda keçirilmiş “Moldova” ilə həmin oyunu bir qədər ətraflı xatırlayaq. Moskvalı hakim Sergey Alimovun idarə etdiyi görüş 4:2 hesabı ilə bakılıların xeyrinə başa çatmış və təbii ki, həmin payız axşamında 40 min azarkeş sevimli futbolçularını meydandan alqışlarla yola salmışdı. Tofiq hesab 2:2 olarkən fərqlənmiş, komandasını gərgin anlarda qələbəyə yaxınlaşdırmışdı. “Neftçi”nin qalan 3 topunu isə 2 qolun müəllifi Yuri Kuznetsov və Kazbek Tuayev vurmuşlar.

Həmin çempionatda T.Axundov daha 2 dəfə rəqib komandaları oyuna meydanın mərkəzindən başlamağa məcbur etmişdir. Kişinyov klubu ilə matçdakı kimi, avqustun 22-də Rostovun OİK futbolçuları ilə görüşdə də, statistikada göstərildiyi kimi, tribunalara 40 min azarkeş toplaşmışdı. Ədaləti xarkovlu hakim A.Vasilyevin qoruduğu qarşılaşmada “Neftçi” 2:1 hesabı ilə qalib gəlmiş və oyunda ilk qolun müəllifi artıq 10-cu dəqiqədə Axundov olmuşdur.

Bundan 2 ay sonra, oktyabrın 23-də Moskvada OMİK–“Neftçi” görüşündə də Azərbaycan paytaxtı futbolçularının xeyrinə 2:1 hesabı qeydə alınmışdır. Maraqlıdır ki, riqalı hakim M. Rubenisin idarə etdiyi bu oyunda da birinci olaraq Axundov fərqlənmişdir. O, artıq 12-ci dəqiqədə komanda yoldaşlarına və azarkeşlərimizə qol sevinci yaşatmışdır. Göründüyü kimi, 61 il əvvəl, 1963-cü ildə keçirilmiş 25-ci SSRİ çempionatında “Neftçi”nin müdafiəçisi T. Axundovun vurduğu hər 3 qol komandanın qələbələrində mühüm rol oynamışdır.

Yeri gəlmişkən, həmin çempionatda 20 kollektiv çıxış etmişdir. Komandamızın 38 oyunda 45 xal toplayaraq turnir cədvəlində finişə



8-ci mövqedə çatmasında müdafiəçi Axundovun vurduğu 3 qolun da köməyi böyük olmuşdur.

“Neftçi”nin 25-ci çempionatda onunla eyni miqdarda xal toplayıb, 6–7-ci yerləri bölüşdürən Leninqradın “Zenit” və Moskvanın OMİK komandalarından yalnız topların fərqinə görə geri qaldığını da xatırlaya bilərik.

“Moldova” ilə görüşü tribunalardan 40 min tamaşaçının izləməsi də bakılıların ümidləri doğrultmalarını təsdiq edirdi. Bununla əlaqədar mərhum həmkarım Aqşin Kazımzadənin tərtib etdiyi və 1964-cü ildə çap olunmuş təqvim-məlumat kitabçasında 25-ci çempionat haqqında yazdığı sətirlər təsadüfi deyildi:

“Ötən mövsümü bir daha xatırlayın. O bizə nə qədər sevinc bəxş etdi! Yəqin ki, bütün dövrlər ərzində ilk dəfə olaraq biz – Azərbaycanın futbol azarkeşləri də özümüzü “azarkeş kaqortası”nın tam hüquqlu üzvü hiss etdik. Buna səbəb isə bizim “Neftçi”nin ölkə çempionatında inamlı çıxışı, onun favoritlər üzərində böyük qələbələri və nəhayət, turnir cədvəlində layiq olduğu 8-ci yerdir. Sevindirici və çox vacib haldır ki, futbolçularımızın oyununda tərəqqi yaranıb, heyətə istedadlı, qabiliyyətli, yaxın zamanda səviyyəli ustalara çevriləcəklərini vəd edən gənclər cəlb olunub”.

Tofiq Axundovun daha bir qolu isə 1961-ci ildə 23-cü çempionata təsadüf etmişdir. Həmin il mayın 2-də komandamız Riqada yerli “Daugava”nın qonağı olmuşdur. Oyunda rəqibləri meydanın mərkəzinə tallinli hakim V. Fridman dəvət etmişdir. Hesabı 43-cü dəqiqədə Latviya futbolçuları açmış, 2-ci hissənin lap əvvəlində, 46-cı dəqiqədə isə Axundov cavab topu vurmuş və komandalar meydandan sülhlə ayrılmışlar – 1:1.

Statistika T.Axundovun 1961–1965-ci illər mövsümündə ardıcıl 5 çempionatda “Neftçi”nin heyətində üst-üstə 86 oyun keçirdiyini də diqqətə çatdırır. Tofiq üçün ən məhsuldar çempionat 1963-cü ilə təsadüf etmişdir–37 oyun, 3 qol. Bu çempionatda müdafiəçimiz komandasının 38 oyunundan yalnız birində meydanda olmayıb.

Həmin illərdə Bakı komandasının müdafiə xəttində Axundovla yanaşı, Adil və Yaşar Babayevlərin, Ravil Cəlilov, Robert Çançaleyşvili, Nikolay Boqdanov, Vladimir Bruxti, Vyaçeslav Semiqlazovun çıxış etdiklərini də unutmamışıq.

O da yadımızdadır ki, T.Axundovun ən səmərəli, ən çox yadda qalan futbol illəri 1961–1965-ci illər olubsa, bu məşhur sima, həmçinin müxtəlif illərdə qısa müddətdə onda hələ Kirovabad adlanan indiki Gəncə şəhərinin “Toxucu” və “Dinamo” komandalarında, “Polad” Sumqayıtda və “Araz” Naxçıvanda da çıxış etmişdir.

Səksən yeddi il əvvəl, 1937-ci ildə həyata göz açan, neçə-neçə oyunundan zövq aldığımız Tofiq Axundov “Neftçi”yə layiq oyunçu idi. Və nə yaxşı ki, onun SSRİ çempionatı-63-də “Moldova”nın qapısına vurduğu qol yadımdadır. Stadionda həmin qolun şahidi olmasaydım, bəlkə də indi bu yazı da ərsəyə gəlməzdi…

Sonda hörmətli oxucuların diqqətinə çatdırım ki, bu xatirə qeydləri “Neftçi-70, unudulmayan keçmiş. 1937-2007” (müəlliflər–Səbuhi Səfiyarlı, Elçin Rüstəmov) və “Neftçi”-70 (müəllif– mərhum Əməkdar jurnalist Abas Əzimov) kitablarında verilmiş statistik göstəricilər və məlumatlar əsasında hazırlanmışdır.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Orda bir kənd var, uzaqda...

## Yardımlı rayonu, Dağüzü kəndi



*Foto R.Qəribindir*

HAVA

# Aranda yağmursuz, dağlarda yağış və duman



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 5-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Gecə 20-25°, gündüz 32-37° isti olacaq.**

Atmosfer təzyiqi 755 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 32-37°, dağlarda gecə 8-13°, gündüz 18-23° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi qurumun əməkdaşı Nuru Poladlıya bacısı

**NƏRMİN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Neft və Sənaye Universitetinin professoru Hacan Hacıyev ailəsi ilə birlikdə Samir və Təranə Məmmədovlara ataları

**ƏLİBALA MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Xalq qəzeti” baş redaktorunun birinci müavini Qüdrət Piriyev Səlim Müslümova həyat yoldaşı

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“ATİB” İdarə Heyətinin kollektivi heyət üzvü Muhterem Özə

**ATASININ**

vaxtsız vəfatından kədərləndiyini bildirir, ona və ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 2864 |
| SİFARİŞ | 1412 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00